# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyası.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

№ 37 (1382), 11 - 17 sentyabr 2018-ci il

*Qəzet 2001-ci ildən çıxır.*





## Taekvondoçumuz Buenos-Ayres-2018-ə lisenziya qazandı

Rusiyada keçirilən taekvondo üzrə G1 kateqoriyalı "Russian Open" beynəlxalq turnirinə yekun vurulub. Yarışın ilk günündə komandamızın üzvü Hatəm Həsənli (45 kq) bütün rəqiblərini üstələyərək qızıl medal qazanıb. Azərbaycanın gənclərdən ibarət taekvondo üzrə Olimpiya komandasının iki üzvü isə yarışın sonuncu günündə fərqlənib. Turnirdə 63 kiloqram çəki dərəcəsində mübarizə aparan Cavad Ağayev yarışın qalibi olub. "Qəbələ" idman klubunun taekvondoçusu olan Cavad Ağayev bu nəticə ilə Yeniyetmələrin III Yay Olimpiya Oyunlarına lisenziya qazanıb.

Digər idmançımız Minayə Əkbərova (46 kq) isə yarımfinalda məğlub olaraq bürünc medalla kifayətlənib.

Beləliklə, turnirdə dörd idmançı ilə təmsil olunan komandamız yarışı iki qızıl və bir bürünc medalla başa vurub.

Komandamız yarışda Əməkdar məşqçi Məmməd Abdullayevin və böyük məşqçi Zahid Məmmədovun rəhbərliyi ilə mübarizə aparıb.

## Buenos-Ayres estafeti Seneqala verəcək

Beynəlxalq Olimpiya Komitəsinin (BOK) İcraiyyə Komitəsi Seneqalı 2022-ci ildə keçiriləcək Yeniyetmələrinin IV Yay Olimpiya Oyunlarının ev sahibi kimi tövsiyə edib.

BOK-un Qiymətləndirmə Komissiyasının təqdim etdiyi Afrikanın 4 ölkəsində (Botsvana, Nigeriya, Tunis, Seneqal) axırıncısına üstünlük verilib. BOK prezidenti Tomas Bax Afrikanı gənclər qitəsi adlandıraraq Seneqalın Yeniyetmələrin IV Olimpiya Oyunlarına ev sahibliyi edə biləcək ən yaxşı namizəd kimi dəyərləndirib.

Yeniyetmələrin IV Yay Olimpiya Oyunlarının ev sahibinin adı BOK-un bu il oktyabrın 8-9-da Buenos-Ayres şəhərində təşkil ediləcək sessiyasında açıqlanacaq.

BUENOS AIRES 2018
YOUTH OLYMPIC GAMES
YOG DNA

## Olimpizm

### AOK rəhbəri hazırlıq prosesindən razıdır



Avropa Olimpiya Komitəsinin (AOK) prezidenti Yanez Kotsiyançiç Minsk şəhərinin II Avropa Oyunlarına hazırlığını yüksək qiymətləndirib. Bu barədə AOK rəhbəri Belarus Olimpiya Komitəsinin prezidenti Aleksandr Lukaşenko ilə söhbətində deyib.

"Düşünürəm ki, II Avropa Oyunlarına hazırlıq yüksək səviyyədə gedir. Təşkilat Komitəsi böyük əzmlə işləyir. İnanıram ki, 2019-cu ildə Avropa Oyunlarının təşkili uğurlu alınacaq", - deyə Yanez Kotsiyançiç bildirib.

AOK rəsmisi Belarus hökumətinə yarışlar dövründə vizasız rejimin tətbiqi ilə bağlı təşəkkürünü bildirib. Yanez Kotsiyançiç vizasız rejimin nəinki idmançılar, eləcə də, qonaqlar üçün əhəmiyyətini yüksək qiymətləndirib.

Məlumat üçün bildirək ki, II Avropa Oyunları 2019-cu il iyunun 21-30-da Belarusun Minsk şəhərində keçiriləcək. İdmançılar yarışlarda 15 idman növü üzrə 200 dəst medal uğrunda mübarizə aparacaqlar. 10 idman növü üzrə keçiriləcək yarışlar Tokio-2020 Olimpiadasına lisenziya verəcək.

### Cənubi Koreya və KXDR olimpiadaya birgə ev sahibliyi edəcək

Cənubi Koreya və KXDR 2032-ci ildə keçiriləcək Olimpiya Oyunlarına birlikdə ev sahibliyi etməyi planlaşdırır.

Əvvələr müharibə və münaqişə şəraitində yaşayan iki dövlət dörd ildən bir keçirilən idman tədbirini Seul (Cənubi Koreya) və Pxenyan (KXDR) şəhərlərində təşkil etmək üçün müzakirələr aparır. Qonşu dövlətlər Beynəlxalq Olimpiya Komitəsinə ərizə ilə müraciət edəcəklər.

"Money today" nəşrinin yazdığına görə, tərəflər bu barədə yaxınlarda Koreya dövlətlərinin Pxenyanda keçiriləcək sammitində ətraflı danışacaqlar.

Olimpiada-2032-nin ev sahibinin adı 2021-ci ildə açıqlanacaq.



Polşanın paytaxtı Varşavada Qran-pri seriyasından olan "Poland Open" turnirinə yekun vurulub.

## Mariya Stadnik Qran-pri turnirinin qalibi olub

Turnirdə ölkəmizi təmsil edən qadınlardan ibarət yığmamızın lideri Mariya Stadnik (50 kq) qızıl medala layiq görülüb. İdmançımız həlledici görüşdə ötən il Avropa çempionatının finalında məğlub etdiyi (10:0) Ukrayna idmançısı İlyona Semkivlə qarşılaşıb. Finaladək bütün görüşlərində asanlıqla qələbə qazanan Mariya Stadnik həlledici görüşü də uğurla başa vurub.

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU**

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

## Regionlarda yaradılan şərait gənc nəslin xoşbəxt gələcəyinə yönəldilib

Səh. 5

## Anons

*Cüdoçular dünya çempionatı ilə bağlı nə düşünürlər?*

Yarışların təqvimi açıqlandı

Səh. 4

"Qəbələ"nin UEFA Gənclər Liqasındakı rəqibi müəyyənləşib

Səh. 6

*Favoritlərdən fərqli nəticələr*

Səh. 7

Millətlər Liqası: startda uğurlu və uğursuzlar

Səh. 7

## Anons

*Sentyabrda gimnastikanın üç növü üzrə yerli yarışlar təşkil ediləcək*

Üçüncü Dünya Köçəri Oyunlarının təntənəli bağlanış mərasimi keçirilib

*Səfər qolu tarixə qovuşur?!*

Səh. 2

İdmançılarımız Buenos-Ayresdə uğurlu nəticə qazanmaq əzmindədirlər

Səh. 3



**Yeniyetmələrin III Yay Olimpiya Oyunlarına 23 gün qalır**


olimpnews.az - sizin saytınız



## Gimnastika

# Sentyabrda gimnastikanın üç növü üzrə yerli yarışlar təşkil ediləcək

Azərbaycan Gimnastika Federasiyası biri-birinin ardınca gimnastikanın 3 növü üzrə yerli yarışlar təşkil edəcək.

Sentyabrın 21-də Bakı Gimnastika Məktəbində tamblinq üzrə 16-cı Azərbaycan çempionatı və Bakı birinciliyi keçiriləcək. Yarışlarda Bakı Gimnastika Məktəbi, Nizami rayonu 13 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbi, "Neftçi İdman Klubu" və "Ocaq Sport" klubunu təmsil edən 25 gimnast qüvvəsini sınayacaq. İştirakçılar balacalar, yeniyetmələr, gənclər və böyüklər yaş kateqoriyasında medallar uğrunda mübarizə aparacaqlar.

Sentyabrın 26-27-də akrobatlar "Ocaq Sport" klubunun zalında akrobatika gimnastikası üzrə 25-ci Azərbaycan və Bakı birinciliyində yarışacaqlar. Yarışlarda Bakı Gimnastika Məktəbi, Nizami rayonu 13 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbi, Neftçi İdman Klubu və Ocaq Sport Klubunun (Şabran) təmsilçiləri medallar uğrunda yarışacaqlar.




Batutçuların yarışları isə sentyabrın 27-də "Ocaq Sport" idman klubunda baş tutacaq. İdmançılar batut gimnastikası üzrə 4-cü Azərbaycan çempionatı və Bakı birinciliyində mübarizə aparacaqlar. Bakı Gimnastika Məktəbi və Ocaq Sport Klubunu təmsil edən 44 iştirakçı balacalar, uşaqlar, yeniyetmələr gənclər və böyüklər yaş kateqoriyasında mübarizə aparacaq.

## Güləş

# Namiq Əliyev: "Dünya çempionatı Tokio-2020-yə hazırlıq xarakteri daşıyır"



Sentyabrın 8-də Olimpiya Güləş Mərkəzində Azərbaycan Güləş Federasiyasının (AGF) sərbəst güləş yığmasının mətbuat üçün açıq məşqi keçirilib. AGF-nin prezident əvəzi Namiq Əliyev sərbəst güləşçilərimizin məşqini izləyib. Hazırlıq prosesinin gedişində idmançılar və məşqçilərlə görüşən Dünya Güləş Birliyinin (DGB) İcraiyyə Komitəsinin üzvü daha sonra güləşimizin bu günü, qarşıdakı yarışlar və hədəflərlə bağlı da açıqlamalar verib. "Federasiyada kifayət qədər perspektiv vəd edən gənc güləşçilər yetişib. Bizi qarşıda gənclər və böyüklər arasında dünya çempionatı gözləyir. Gənclərə diqqəti artırmışıq. London Olimpiadasının qalibi olanda Toğrul Əsgərovun hələ 19 yaşı var idi. Sentyabrda dünya çempionatında çıxış edəcək gənc güləşçilərimiz vaxt gələcək ki, ölkəmizi Olimpiya Oyunlarında təmsil edəcəklər. Dünya çempionatı Tokio-2020-yə hazırlıq xarakteri daşıyır. Əsas dünya çempionatı gələn il keçiriləcək. Olimpiadaya lisenziyanı Qazaxıstanda keçiriləcək yarış verəcək. Budapeştdəki mundial isə yığmanın heyətini müəyyənləşdirmək üçün əlverişli imkandır. Bəzi çəkiləri bir daha nəzərdən keçirəcəyik. Güləşçilərin kateqoriyalara necə uyğunlaşmalarına baxacağıq. Fikrimcə, bu DÇ çəkilər üzrə seçimdə həlledici olacaq. Çünki növbəti il eksperiment edə bilməyəcəyik. Hələ bəzi güləşçilər çəkilər üzrə əsl yerini tapmayıblar. Bizim üçün əsas Olimpiya kateqoriyalarıdır. Budapeştdə həm də əsas rəqiblərimizi nəzərdən keçirəcəyik".

Azərbaycan güləşçilərinin daim uğurlu nəticə verdiklərini deyən AGF-nin rəsmisi deyib: "Bütün yaş qruplarında dünya və Avropa çempionlarımız var. Artıq yerli qızlarımız da yetişib. Onlardan biri ölkəmizi Yeniyetmələrin Yay Olimpiya Oyunlarında təmsil edəcək. Avropa və dünya çempionatlarında komanda hesabında bir qayda olaraq ilk "3-lük"də oluruq. Azərbaycan millisi dünyanın ən güclü yığmalarından sayılır və bu səbəbdən komandalarımıza qarşı həmişə diqqət var. Sözsüz, Avropada əsas rəqibimiz Rusiyadır. Ancaq Türkiyəni də siyahıdan silmək olmaz. Onların da çox güclü komandası var. Dünya arenasında Yaponiya ciddi rəqiblərdən biridir. Bir sözlə, bizi dünya çempionatında güclü rəqabət gözləyir".

## İdman oyunları

# Üçüncü Dünya Köçəri Oyunlarının təntənəli bağlanış mərasimi keçirilib



İssık-Kul gölünün sahilində keçirilən üçüncü Dünya Köçəri Oyunlarının (DKO) təntənəli bağlanış mərasimi keçirilib.

Qırğızıstanın dövlət himni səsləndirildikdən sonra ölkənin Baş naziri Muxammedkalıy Abulqaziev DKO-nın başa çatması münasibətilə idmançıları, qonaqları və digər iştirakçıları təbrik edib.

Bildirilib ki, idmanın 37 növü üzrə yarışlarda dünyanın 80 ölkəsindən 3 minə yaxın idmançı iştirak edib. Tədbirə dünyanın 60 ölkəsindən 500-dən çox jurnalist iştirak edib. Yarışlara dair xəbərləri bütün dünyaya yaydıqlarına görə jurnalistlərə minnətdarlıq edən Baş nazir növbəti Oyunların Türkiyədə keçiriləcəyini diqqətə çatdırıb.

Baş nazir DKO-nın bayrağını və simvolunu Türkiyənin mədəniyyət və idman nazirinin müavini Həmzə Erlikaya təqdim edib.

Həmzə Erlikay çıxışında deyib ki, Türkiyədə dördüncü Dünya Köçəri Oyunlarının açılışı 2020-ci il sentyabrın 2-də keçiriləcək.

İdman bayramının təntənəli bağlanış mərasimi Qırğızıstanın və digər dövlətlərdən gələn incəsənət ustalarının böyük konsert proqramı ilə başa çatıb.

Məlumat üçün qeyd edək ki, Azərbaycan idmançıları Köçəri Oyunlarında 1-i qızıl, 6-ı gümüş və 8-i bürünc olmaqla ümumilikdə 15 medala layiq görülüb. Komandamıza qızıl medalı güləşçimiz Cəlal Süleymanov qazandırıb.

Medal qazanan idmançıların sayına görə Qırğızıstan birinci yeri tutub. Belə ki, Qırğızıstanın qazandığı medalların 40-ı qızıl, 30-u gümüş, 30-u isə bürüncdür. Qazaxıstan ikinci yerdə qərarlaşıb və aktivində 69 medal var. Rusiya idmançıları isə 52 medalla üçüncü yeri tutub.

Məlumat üçün bildirək ki, yarışda ümumiyyətlə, idmançılara 594 medal təqdim olunub. Bunlardan 174-ü qızıl, 173-ü gümüş, 247-si bürünc medallardır.

# Saxadan 5 medal

Saxa Respublikasının (Rusiya) Yakutsk şəhərində Dmitri Korkinin xatirəsinə həsr olunan sərbəst güləş üzrə beynəlxalq turnir başa çatıb. Güləşçilərimiz bu yarışı 5 (2 qızıl, 1 gümüş, 2 bürünc) medalla başa vurublar.

Qızıl medalları komandamıza Nurməhəmməd Hacıyev (97 kq) və Əhmədnəbi Qvarzatilov (61 kq) qazandırıb. Gümüş medala Pərviz İbrahimov (57 kq) sahib çıxıb. İbrahim Yusubov (79 kq) və Hacımurad Ömərov (74 kq) isə bürünc medala layiq görülüblər.



## Xəbərlər

# "Dünya çempionatının Bakıda uğurla təşkil olunacağına inanıram"

"Cüdoçularımız uzun müddətdir ki, dünya çempionatına hazırlaşırlar. Onlar texniki və taktiki baxımdan çox yaxşı hazırlıq keçiblər. İdmançılarımızın hər birinin məqsədi dünya çempionatında medal qazanmaqdır".

Bunu İspaniya Cüdo Federasiyasının idman direktoru Sara Alvarez Menendez Bakıda keçiriləcək dünya çempionatı haqqında danışarkən deyib. O, bütün çəki dərəcələrində medal qazanmağa çalışacaqlarını vurğulayıb: "Bu, çətin olsa da, mümkünsüz deyil. Milli komandamızın hər bir üzvü mənim səvimlimdir. Ona görə də konkret kimlərdən medal gözlədiyimi söyləyə bilmərəm".

Azərbaycan cüdo millisinin güclü rəqiblərdən olduğunu vurğulayan Sara Alvarez Menendez deyib: "Azərbaycan cüdoçularının əksəriyyəti güclüdür. Çempionata gəldikdə isə, digər dünya çempionatları kimi, bu yarışın da Bakıda uğurla təşkil olunacağına inanıram".

# Səfər qolu tarixə qovuşur?!

Avropanın aparıcı baş məşqçilərinin Nyonda forumu keçirilib.

"Röyters"in yaydığı xəbərə görə, forumda onlar qitə miqyaslı klub yarışlarında səfər qolu qaydasına yenidən baxılması xahişi ilə UEFA-ya müraciət etməyə qərar veriblər.

Bu barədə qurumun yarışların təşkili üzrə direktoru Corcio Marketti məlumat verib: "Onlar düşünürlər ki, indi səfərdə qol vurmaq asandır. Məşqçilər hesab edirlər ki, futbolda vəziyyət dəyişib və buna görə də səfər qolu məsələsinə yenidən baxmaq lazımdır. Biz bunu araşdıracağıq".

Görüşə Massimiliano Allegri ("Yuventus"), Karlo Ançelotti ("Napoli"), Rafael Benites ("Nyukasl"), Arsen Venger (hazırda klubsuzdur), Rudi Qarsiya ("Olimpik", Marsel), Şenol Güneş ("Beşiktaş"), Serjiu Konseysau ("Portu"), Xulen Lopeteqi ("Real" Madrid), Joze Mourinyo ("Mançester Yunayted"), Tomas Tuhel (PSJ), Paulu Fonseka ("Şaxtyor" Donetsk) və Unai Emeri ("Arsenal") dəvət alıb.

Qeyd edək ki, 1965-ci ildən tətbiq edilən qaydaya əsasən, pley-off oyunlarında səfər qolu komandaya üstünlük qazandırır. İki oyunun nəticəsinə görə hesab bərabər olarsa, səfərdə qol vuran, hər iki oyunda qollu bərabərlik qeydə alınanda isə, səfərdə daha çox qol vuran komanda mərhələni keçir.

## Velosiped

# *Autizmli uşaq, yeniyetmə və gənclər arasında yarış təşkil olunacaq*

Bu gün Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə Autizmlilərin İdman Klubları (AİK) autizmli uşaq, yeniyetmə və gənclər arasında velosiped yarışı keçiriləcək.

Dənizkənarı Milli Parkda təşkil olunacaq yarış Azərbaycan Velosiped İdmanı Federasiyasının, Respublika Olimpiya Velosiped Məktəbinin, "brendsport.az saytının təşkilatçılığı və Autizmlilərin İdman Klublarının birgə təşəbbüsü ilə təşkil olunacaq.

Autizmlilərin həyatında xüsusi yer tutan velosiped idmanı üzrə yarışın keçirilməsində məqsəd idmanın bu növünün təbliği, klublar arasında güclü idmançıların müəyyənləşdirilməsidir.

## Badminton

# Minskdə uğurlu nəticə

Azərbaycan badmintonçuları Minskdə "Belarus International-2018" turnirində uğurla çıxış ediblər.

Turnirə əsas mərhələdən başlayan badmintonçumuz Edi Reski Dviçayo kişilərin şəxsi yarışında finala gedən yolda Qazaxıstan, Finlandiya, Hindistan və Polşa təmsilçilərinə qalib gəlib. Dviçayo finalda fransalı Leo Rossini 2:1 hesabı ilə məğlub edərək turnirin qalibi adını qazanıb.



İdmançılarımız kişilərin qoşa yarışında da fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Edi Reski Dviçayo - Ezmi Qovimuramadhoni cütü final yolunda İsrail, Ukrayna və Polşadan olan həmkarlarını məğlub ediblər. Təmsilçilərimiz həlledici görüşdə Fransa badmintonçuları Leo Rossi-Tomas Baures üzərində də inamlı qələbə qazanıblar - 2:0.

Qeyd edək ki, Edi Reski Dviçayo və Ezmi Qovimuramadhoni "Sabah" peşəkar idman klubunun üzvləridir.

## Şahmat

Türkiyənin Qəbzə şəhərində yaşı 20-dən çox olmayan şahmatçı gənclər arasında dünya çempionatı keçirilir. Turnirdə 65 ölkədən 268 (168 oğlan, 100 qız) zəka sahibi mübarizə aparır. İsveçrə sistemi üzrə keçirilən yarışlar 11 turdan ibarətdir.

Yuniorlar arasında çempionatın reytinq-favoritləri Parxam Maqsudlu (2649, İran), Yorden van Foreyest (2624, Hollandiya) və Aleksandr Donçenkodur (2614, Almaniya).

# Zəka sahiblərimiz Türkiyədə mübarizəyə başladılar



Bu turnirdə Azərbaycanı beynəlxalq ustalar Vüqar Əsədli, Ülvi Sadıxov, Məhəmməd Muradlı və Nail Bəşirli, FIDE ustası Kənan Qarayev və Məhəmməd İsmayılov təmsil edirlər.

Qızların yarışında Stavrula Solakidu (Yunanıstan, 2393), Davaabemberel Nomin-Erdene (2377, Monqolustan) və Bibisara Assaubayeva (Rusiya, 2371) reytinq-favoritlər statusunda çıxış edirlər. Qızların yarışlarında ölkəmiz beynəlxalq qrossmeyster Aydan Hücətova, FIDE ustası Göhvər Beydullayeva və Aytac Heydərova ilə təmsil olunur.

BUENOS AIRES 2018 YOUTH OLYMPIC GAMES

# İdmançılarımız Buenos-Ayresdə uğurlu nəticə qazanmaq əzmindədirlər

Yeniyetmələrin Olimpiya Oyunları dünyanın ən nüfuzlu idman yarışlarından biri hesab olunur. Bu idman yarışı ilk dəfə 2010-cu ildə Sinqapurda, 2014-cü ildə isə Çinin Nankin şəhərində təşkil olunub. Sinqapurda komandamız 8 medalla (5 qızıl, 3 gümüş) 11-ci, Nankində isə 12 medalla (5 qızıl, 6 gümüş, 1 bürünc) 10-cu pillədə qərarlaşmışdı.

Möhtəşəm idman mübarizəsinə bu dəfə Cənubi Amerikada start veriləcək. Argentinanın paytaxtı Buenos-Ayres şəhərinin ev sahibliyi edəcəyi yarış oktyabrın 6-dan 18-nə kimi davam edəcək. Oyunlarda dünyanın ən güclü yeniyetmə idmançıları 32 idman növündə qüvvələrini sınayacaqlar.

Yarışlarda Azərbaycan təmsilçiləri də mübarizə aparacaqlar.

Yeniyetmələrin III Yay Olimpiya Oyunlarına qalan az vaxtdan istiafadə edən idmançılarımız məşqlərini əzmlə davam etdirir, təlim-məşq toplanışlarında, sınaq xarakterli yarışlarda iştirak edirlər. 9 idman növündə 17 idmançımız Buenos-Ayres-2018 Oyunlarına lisenziya qazanıb. Cənubi Amerikada boks, atletika, stolüstü tennis, taekvondo, cüdo, güləş, gimnastika və ağırlıqqaldırma yarışlarında iki, üzgüçülük yarışlarında isə 1 idmançımız təmsil olunacaq.

Bu yaxınlarda dəri əlcək ustalarımızdan Nicat Həsənov, yeniyetmə üzgüçülərimizdən isə Fatimə Alkərəmova ilə görüşüb Oyunlara hazırlıqla bağlı fikirlərini öyrəndik. Təmsilçilərimiz suallarımızı səmimi cavablandırdılar.



## "Məsuliyyət hissi insanı zirvələrə ucaldır"

***-Nicat, Yeniyetmələrin III Yay Olimpiya Oyunlarına hazırlıq prosesi necə gedir?***

- Hazırlıqlar qaydasındadır. Dünya çempionatından yeni qayıtmışıq. Doğrudur, nəticə o qədər də ürəkaçan olmadı. Lakin səhvlərimizi təhlil etməkdə bu yarış bizim üçün çox faydalı oldu. Bundan sonra bütün diqqətimizi Yeniyetmələrin III Yay Olimpiya Oyunlarına yönəldəcəyik. O vaxta kimi çalışacağıq ki, səhvlərimiz üzərində çalışaq.

***- Səninlə birlikdə komanda yoldaşın Nurlan Səfərov da Oyunlarda iştirak edəcək. Bu, sənin üzərinə düşən məsuliyyəti və həyəcan hissini qismən də olsa azaldırmı?***

- Bəli, ola bilsin ki, həyəcanım bir az olsun. Buna görə Nurlana təşəkkür edirəm. Ancaq məsuliyyət hissi çox böyükdür. Heç azalmasını istəmirəm də. Çünki məsuliyyət hissi insanı zirvələrə ucaldır.

***- Adətən bu cür yarışlardan əvvəl idmançılar bacarıqlarını artırmaq məqsədilə təlim-məşq toplanışlarında iştirak edirlər...***

- Təlim-məşq toplanışları idmançılar üçün çox vacibdir. Hər dəfə böyük yarışlar ərəfəsində biz də təlim-məşq toplanışlarında iştirak edirik. Bu dəfə də belə oldu. Düzdür, Yeniyetmələrin III Yay Olimpiya Oyunlarına hazırlıq üçün hansısa xarici ölkədə olmamışıq. Lakin Sumqayıtda, Göygöldə və Balakəndə yüksək səviyyəli təlim-məşq toplanışlarında iştirak etmişik.

***- İstərdik, bu mötəbər idman yarışına lisenziya qazandığın günü birgə xatırlayaq...***

- Lisenziyanı aprelin 18-dən 25-nə kimi İtaliyada keçirilən Avropa çempionatında qazanmışam. Düzdür, çox çətin oldu, lakin bacardım. İndi isə bizi daha ciddi sınaq gözləyir.

***- İdmançı yarışa təkcə fiziki və texniki-taktiki cəhətdən yox, həm də psixoloji cəhətdən hazırlaşmalıdır. Psixoloji hazırlığın barədə nə deyə bilərsən?***

- Artıq bir neçə ildir ki, peşəkar idmandayam. Dəfələrlə beynəlxalq miqyaslı yarışlarda iştirak etmişəm. Əminliklə deyə bilərəm ki, boksçunun psixoloji hazırlığı qaydasında olmasa, o, nəinki qalib gələ bilməz, heç rinqdə normal döyüşməyi də bacarmaz. Bəlkə də, digər idman növlərində belə deyil. Lakin döyüş idman növlərində, o cümlədən də boksda psixoloji hazırlıq çox vacibdir. Gərək sən özünə inanmaqla yanaşı, həm də rəqibi gözündə kiçiltməyəsən, onu zəif idmançı kimi görməyəsən. Buna görə bizim işimiz bir qədər çətindir. Həm yığma komandanın məşqçisinin, həm də şəxsi məşqçim Rəhim Allahverdiyevin rəhbərliyi ilə, demək olar ki, hər məşq psixoloji hazırlıq üzərində də işləyirik. İnanıram ki, hər şey yaxşı olacaq.

***- Nəticə barədə fikirlərin necədir?***



- Əlbəttə, qızıl medal uğrunda vuruşacağam. Hədəfim çempion olmaqdır. Ancaq belə bir söz var ki, qismətdən artıq yemək olmaz. Odur ki, qismətimizə nə yazılıbsa o da olacaq.

***- Məşqçilərin də belə düşünürlər?***

- Sağ olsunlar, onlar da həmişə olduğu kimi bu dəfə də bizə inanırlar. Çalışacağıq ki, boks idman növündə maksimum nəticə əldə edək. Yəni iki qızıl medalla vətənə qayıdaq. Ümid edirəm ki, çəkilən zəhmətlər nəticəsiz qalmayacaq.

## "Özümü oyunlara tam hazır hiss edirəm"

***- İstərdik, əvvəlcə, Buenos-Ayres-2018-ə qazandığınız lisenziyalar barədə məlumat verəsiniz.***

- Yeniyetmələrin III Yay Olimpiya Oyunlarına ilk lisenziyanı 100 m məsafəyə sərbəst üsulla üzgüçülük yarışlarında qazanmışam. 2017-ci ildə Sloveniyanın Kranj şəhərində təşkil olunan təsnifat yarışında uğurla çıxış edərək bu vəsiqəyə sahib oldum. Digər lisenziyalarımı isə Slovakiyanın Jilin şəhərində əldə etmişəm. Bu yarışda 200 m, 400 m, 800 m sərbəst üsul və 200 m qarışıq üsulla üzgüçülük yarışlarında iştirak etmək hüququ qazanmışam.




***- Yeniyetmələrin Olimpiya Oyunlarına çox az bir müddət qalıb. Yarışlara hazırlıq prosesi necə gedir?***

- Oyunlara çox ciddi hazırlaşırıq. Gün ərzində iki dəfə məşq edirik. Necə deyərlər, var gücümüzlə çalışırıq ki, Buenos-Ayresdən medalla qayıda bilək.

***- Buenos-Ayres-2018-ə hazırlıq məqsədilə indiyə kimi hansı ölkələrdə təlim-məşqlərdə olmusunuz?***



- Bolqarıstanın Burqas şəhərində təlim-məşq toplanışı keçmişik. Hazırda isə məşqlərimizi Bakıda davam etdiririk. Su İdman Sarayı bütün standartlara cavab verdiyinə görə məşqlərimizi orada keçirik.

***- Bu cür böyük yarışlarda psixoloji hazırlıq mühüm rol oynayır... Bəs sən özünü, bu Oyunlara psixoloji baxımdan hazır hiss edirsənmi?***

- Doğrudur. İdmançı nə qədər peşəkar olursa-olsun, hər dəfə bu problemlə üzləşir. Həyəcanla bacarmaq heç də asan iş deyil. Ya sən ona qalib gəlməlisən, ya da o sənə. Əgər sən özünə qalib gəlib, həyəcanını boğa bilməsən, heç vaxt rəqibindən yaxşı nəticə göstərə bilməzsən. Elə buna görə də məşqçilərimizin rəhbərliyi ilə yarışa psixoloji cəhətdən də hazırlaşırıq. Lakin qeyd edim ki, hazırda özümü Oyunlara tam hazır hiss edirəm.

***- Argentina paytaxtında səndən hansı uğuru gözləmək olar?***

- Hər şeyi zaman göstərəcək. Əminliklə deyə bilərəm ki, nəticə qazanmaq üçün bütün gücümü səfərbər edəcəyəm. Əslində buna məcburam. Çünki xeyli müddətdir ki, əziyyət çəkirik. Hər bir idmançının borcudur ki, həm özünün, həm də məşqçilərinin zəhmətini yerdə qoymasın. 2012-ci ildən peşəkar idmandayam. Nəticələrim də var. Yəni müəyyən qədər təcrübəyə malikəm. Həmin nəticələr məsuliyyətimi iki qat artırır.

***- Bəs məşqçilərinin yarışla bağlı fikirləri necədir?***

- Onların da fikri müsbətdir. Düşünürəm ki, məndən medal gözləyirlər. Vurğuladığım kimi, dəfələrlə beynəlxalq turnirlərdə uğurlar qazanmışam, Gənclər arasında Avropa Olimpiya festivalının finalçısı, həmçinin Azərbaycan rekordlarının sahibiyəm. Ona görə də hər kəs, o cümlədən də məşqçilərim məndən nəticə gözləyirlər. Ancaq, əlbəttə, bunu açıq-aydın deyib məni arxayınlaşdırmaq və həyəcanımı daha da artırmaq istəmirlər. Buna baxmayaraq, mən üzərimə düşən məsuliyyəti yaxşı dərk edirəm. Əgər medalsız qayıtsam özümü bağışlamağım çətin olacaq.

***Müsahibələri hazırladılar:***
***Azər Əlizadə,***
***Kənan Novruzov***



## İsveçrədə 11 medal qazanıldı

İsveçrənin Bazel şəhərində 9-cu nüfuzlu "Bazel Open Masters" turnirində iştirak edən karate üzrə Azərbaycan milli komandasının üzvləri 4 qızıl, 4 gümüş və 3 bürünc medal qazanaraq yüksək nəticə göstəriblər. Kumite turnirində Rafiz Həsənov (67 kq), Rafael Ağayev (75 kq), Asiman Qurbanlı (84 kq-dan yuxarı) və İrina Zaretska (68 kq) çempion olublar.Tural Ağalarzadə (67 kq) və Şahin Atamov (84 kq-dan yuxarı) gümüş medal qazanıblar. Firdovsi Fərzəliyev (60 kq) və Nuranə Əliyeva (50 kq) isə bürünc mükafata yiyələniblər. "Masters" turnirində Ş.Atamov və İlahə Qasımova ikinci, İrina Zaretska isə üçüncü yeri tutublar.

31 ölkədən müxtəlif yaşlı idmançıların iştirak etdiyi yarışın ardından milli komandamız beynəlxalq təlim-məşqlərdə iştirak edir.

Turnirin və beynəlxalq təlim-məşqlərin təşkilatçısı, İsveçrə Şotokan Karate Do Federasiyasının prezidenti Zubeyir Şahinindəvəti ilə bu ölkədə olan Azərbaycan milli komandası bir həftəlik hazırlıqdan sonra Berlinə Karate-1 Premyer Liqa turnirinə yollanacaq.

## Stolüstü tennisçilərimiz İstanbulda uğurla çıxış ediblər

Yeniyetmə stolüstü tennisçilərimizin iştirakı ilə İstanbulda keçirilən "Türk dünyası ulduzlarının stolüstü tennis liqası" başa çatıb.

Azərbaycan, Türkiyə, Özbəkistan və Şimali Kiprdən tennisçilərin iştirak etdiyi Liqa oyunlarının sonuncu iki günündə komanda və şəxsi yarışlar keçirilib. Dostluq görüşü və yeniyetmələrin təcrübə mübadiləsi məqsədi ilə komanda oyunlarında yığmaların tərkibi müxtəlif ölkələrin idmançılarından ibarət olub.

Komanda yarışlarında tennisçimiz Emin Məmmədov birinci yeri tutan komandanın tərkibində çıxış edib. Ləman Abdülhəmidova ikinci, Zemfira Mikayılova isə üçüncü olan komandada mübarizə aparıblar.

Qızların şəxsi oyunlarında Zemfira Mikayılova bürünc medal qazanıb. Oğlanların mübarizəsində isə Emin Məmmədov ikinci olub.



## Çaparımız beynəlxalq turnirin qalibidir

Gürcüstanın paytaxtı Tbilisidə keçirilmiş atçılığın konkur növü üzrə "CSI1*-W" kateqoriyalı beynəlxalq turnir başa çatıb.

Turnirin final mərhələsində maneələrin hündürlüyü 140-160 santimetr olan yarışda idmançımız Seyid Musayev "Concorde 57" ləqəbli atla birinci yerin və kubokun sahibi olub.

Digər təmsilçimiz Yahor Morotski isə "Astrello" ləqəbli atla ikinci yeri qazanıb. Gürcüstan idmançısı Şalva Qaçeçiladze isə üçüncü yerdə qərarlaşıb.

## Azərbaycan damaçısı dünya çempionu olub

Polşanın Mlava şəhərində xüsusi qrup insanlar arasında keçirilən 64 xanalı dama üzrə dünya çempionatına yekun vurulub.

"Neftçi İdman Klubu" İB-in təmsilçisi, Azərbaycan və Avropa çempionu, beynəlxalq usta Pərviz Həsənov yarışda əzmkarlıq nümayiş etdirərək böyük uğura imza atıb. İdmançımız İsveçrə sistemi üzrə keçirilən mötəbər turnirdə dünya çempionatının qızıl medalına sahib olub. O, bu nəticəyə 7 turdan 13 xal (6 qələbə, 1 heç-heçə) toplayaraq nail olub.



C Ü D O

# Yarışların təqvimi açıqlandı

Sentyabrın 20-27-də Bakıdakı Milli Gimnastika Arenasında keçiriləcək cüdo üzrə dünya çempionatının təqvimi müəyyənləşib.

Çempionatda fərdi yarışlar hər gün saat 10:00-da, final görüşləri isə saat 16:00-da başlayacaq.

Yarışın birinci günündə - sentyabrın 20-də 60 kiloqram çəki dərəcəsində kişilər, 48 kiloqram çəki dərəcəsində isə qadınlar tatami üzərinə çıxacaqlar. Ertəsi gün kişilər 66, qadınlar isə 52 kiloqram çəki dərəcələrində güclərini sınayacaqlar. Çempionatın üçüncü günündə - sentyabrın 22-də 73 kiloqram çəki dərəcəsində kişilər, 57 kiloqram çəki dərəcəsində qadınlar medallar uğrunda yarışacaqlar. Bir gün sonra kişilər 81, qadınlar 63 kiloqram çəki dərəcələrində Bakı mundialında mübarizə aparacaqlar. Yarışın beşinci günündə - sentyabrın 24-də 90 kiloqram çəki dərəcəsində kişilər, 70 kiloqram çəki dərəcəsində qadınlar dünya çempionu adı uğrunda güclərini sınayacaqlar. Ertəsi gün kişilər 100, qadınlar 78, sentyabrın 26-da isə kişilər 100 kiloqramdan yuxarı, qadınlar isə 78 kiloqramdan yuxarı çəki dərəcələrində yarışacaqlar. Mundialın sonuncu günündə - sentyabrın 27-də qarışıq komanda yarışları təşkil olunacaq.

Digər günlərdən fərqli olaraq çempionatın sonuncu günündə yarışlar saat 9:00-da start götürəcək.

# Dünya çempionatı ilə əlaqədar təqdimat xarakterli reportaj hazırlanıb

Beynəlxalq Cüdo Federasiyası (IJF) Bakıda keçiriləcək dünya çempionatı ilə bağlı təqdimat xarakterli reportaj hazırlayıb. Çəkilişlər Azərbaycanın müxtəlif bölgələrində, xüsusən də Bakı və Sumqayıtda aparılıb. Reportajda Yay Olimpiya Oyunlarının qalibləri - Nazim Hüseynovla Elnur Məmmədlinin, ikiqat paralimpiya çempionu İlham Zəkiyevin və yeniyetmələr arasında Avropa çempionu Şahanə Hacıyevanın fikirlərinə yer verilib.





1992-ci il Barselona olimpiadasında birinci yeri tutmaqla, Azərbaycanın ilk Olimpiya çempionu kimi tarixə düşən Nazim Hüseynov onu uğura aparan yoldan söz açıb. O, özü üçün əlamətdar gündə qızıl medal qazandığını vurğulayıb: "Azərbaycan çox gözəl ölkədir, Odlar Yurdudur. Azərbaycan bütün dünyada idman ölkəsi kimi tanınır. Bu gün deyə bilərəm ki, Azərbaycan cüdosu çox sürətlə inkişaf edir. Azərbaycan Xəzərin sahilində yerləşir, gözəl dağları, meşələri var. Cüdo uşaqlar və gənclər üçün nizam-intizam deməkdir. Kiminsə xətrinə dəysələr, cüdoçu onda kömək edə bilər. Yəni, zəifləri müdafiə edərlər. Nailiyyət göstərmək istəyilə 11 yaşımda cüdoya gəldim, 13 yaşımda qolum sındı. Artıq 15 yaşımda yeniyetmələr arasında Bakı, Respublika çempionu oldum. Bundan sonra yığmaya daxil oldum, təlim-məşq toplanışlarına cəlb olundum. Əlamətdar gündə - 1992-ci il avqustun 2-də öz ad günümdə Olimpiya çempionu adını qazandım. 1992-ci ildə - çətin vaxtlarda Azərbaycanı heç kim tanımırdı. Mən Barselonaya gedib, Yay Olimpiya Oyunlarının ilk qızıl medalını gətirəndən sonra ölkəmizi tanımağa başladılar".

"Barselona Yay Olimpiya Oyunlarında Nazim Hüseynovun qələbəsi hələ də gözümün qabağındadır", İ.Zəkiyev söhbətə bu cür başlayır. O, fikirlərinə həqiqi hərbi xidmətdə olduğu zaman Ermənistan snayperinin açdığı atəş nəticəsində yaralanmasından sonra görmə qabiliyyətini itirməsi ilə davam edir: "Cüdoya başlayandan qısa müddət sonra respublika daxilində uğurlarım oldu. Amma 1998-ci ildə həqiqi hərbi xidmətə çağırıldım və Vətənə olan borcumu ödəməyə başladım. 1999-cu il fevralın 4-də döyüş tapşırığını yerinə yetirən zaman düşmən snayperinin güllələsinə tuş gəldim. Güllə sol gicgahımdan daxil olub, sağ gicgahımdan çıxdı. Beş gün koma vəziyyətində yatdım. Hətta həkimlər deyirdi ki, öləcək, qalmayacaq. Nəticədə görmə qabiliyyətimi tamamilə itirdim. İdmana qayıdışım real görünmürdü. Yenidən cüdoya qayıtmağım fantastik ola bilərdi. İlk günlər tatamidə bu vəziyyətə alışmaq çətin idi. Amma bu gün tatamidə özümü çox rahat hiss edirəm. Rəqibimi görməsəm də, hiss edirəm. Hara baxdığını, hansı fəndə cəhd etdiyini duyuram. Yaralandıqdan sonra idmana, məhz cüdoya qayıtmağımla həyatımda yeni səhifə açıldı. Bundan sonra cüdonu daha çox sevdim. Çünki cüdo həyat tərzimə çevrilib. Deyərdim ki, cüdo mənim həyatımdır. Beynəlxalq Cüdo Federasiyasının dünya çempionatının ölkəmizdə keçirilməsinə etimad göstərməsi Azərbaycanda bu idman növünün inkişafından irəli gəlir. Burada dünya çempionatı keçiriləcək və bütün cüdosevərlər bu bayramı yaşayacaqlar".

2015-ci ildə Bolqarıstanın paytaxtı Sofiyada yeniyetmələr arasında Avropa çempionatının qalibi olan Ş.Hacıyeva Azərbaycan cüdoçularının dünya çempionatında uğurlu çıxış edəcəklərinə inamını ifadə edib. Cəbrayıl rayonunun 25 avqust 1993-cü ildə Ermənistan ordusu tərəfindən işğal edilməsindən sonra Sumqayıt şəhərində məskunlaşan məcburi köçkün ailəsinin üzvü idmana valideynlərinin istəyi ilə gəldiyini deyib: "Valideynlərimin idmana böyük həvəsi vardı və mənim də idmançı olmağımı istəyirdilər. Onlar mənə bir-iki növü məsləhət gördülər. Mən isə cüdonu seçdim. Cəbrayıl 1993-cü ildə işğal olunduğu üçün məcburi köçkün kimi Sumqayıtda məskunlaşmışıq. Qaçqın olmaq sadəcə, bir bəhanədir. İnsanın qarşısında məqsədi, özünə inamı varsa, hər bir şeyə nail ola bilər. Dünya çempionatına çox güclü hazırlaşırıq və inanırıq ki, çempion olub, olimpiadaya lisenziyanı təmin edəcəyik".

2008-ci il Pekin olimpiadasının qalibi olan Elnur Məmmədli 1992-ci ildə Nazim Hüseynovun Olimpiya çempionu olmasından sonra cüdoya həvəsinin yarandığını söyləyib. O, gənclərə tövsiyələrini də çatdırıb: "2008-ci il avqustun 11-i mənim üçün unudulmaz gündür. Həmin gün həyatıma ağ zolaq yazıldı. Arxaya baxmaq istəmirəm. Deyirsən ki, bu çətinliyi keçməyim nə yaxşı oldu. Rahat nəfəs ala bilirsən. Xalqımın məni çox istəməsi, öz qəhrəmanı ilə qürur duyması özümü də çox sevindirirdi. Bu, gözəl hisslərdir. Bütün gənclərə üzümü tutub deyirəm ki, narkomaniyadan uzaq olsunlar, sağlam həyat tərzi keçirsinlər. Fərqi yoxdur - peşəkar və ya həvəskar. Əsas odur ki, idmanla məşğul olursan".

# Cüdoçular dünya çempionatı ilə bağlı nə düşünürlər?

***Son illər idman uğurları ilə dünyada fərqlənən Azərbaycanın cüdo üzrə dünya çempionatına ev sahibliyi etməsinə artıq az bir vaxt qalıb. Bu mötəbər yarışda Azərbaycanla yanaşı, müxtəlif ölkələrin ən güclü tatami ustaları Milli Gimnastika Arenasında qüvvələrini sınayacaqlar. Son məlumatlara görə artıq 132 ölkədən 820 (503 kişi, 317 qadın) cüdoçu yarışda iştirakını təsdiqləyib. Komandamız çempionatda təcrübəli məşqçilərin rəhbərliyi ilə 9-u kişi, 6-ı qadın olmaqla 15 cüdoçu ilə təmsil olunacaq. Bu yaxınlarda yarışda güclərini sınayacaq cüdoçularımızdan bir neçəsi ilə görüşüb, onların fikirlərini öyrəndik. Milli komandamızın üzvləri qələbə üçün çalışdıqlarını dedilər.***

## "Heç bir dünya çempionatı asan olmur"

**Rüstəm ORUCOV**



- Heç bir dünya çempionatı asan olmur. Əminəm ki, bu yarış da bizim üçün asan olmayacaq. Lakin çalışacağıq ki, həm özümüzü, həm məşqçilərimizi, həm də bütün xalqımızı sevindirək. Hər kəs bizdən qələbə gözləyir. Çox istəyirik ki, onların bizə olan ümidlərini Bakıdakı mundialda doğruldaq. Bunun üçün çox çalışırıq. Hazırda Zuğulbada təlim-məşq toplanışı keçirik. Yarışlara az vaxt qalıb. Zədə almamaq lazımdır. Ümid edirəm ki, hər şey yaxşı olacaq. Çünki komandada ümumi abu-hava çox yaxşıdır.

## "İndi əsas psixoloji hazırlıqdır"

**Elxan MƏMMƏDOV**



- Hazırlıqlar tam qaydasında davam edir. Dünya çempionatına hazırlaşmaq məqsədilə indiyə kimi bir çox ölkələrdə, o cümlədən Yaponiyada, Koreyada, Hollandiyada təlim-məşq toplanışlarında iştirak etmişik. Kim nə deyir, desin, Azərbaycan cüdoçuları kifayət qədər gücə və bacarığa sahibdirlər. İndi əsas psixoloji hazırlıqdır. Əgər komandadakı idmançıların psixoloji durumu qaydasında olarsa, nəticə də yaxşı olacaq. Ümumiyyətlə bu mərhələdə daha çox psixoloji hazırlıq üzərində işləmək lazımdır. Çünki yarışa az vaxt qalıb. Fiziki cəhətdən yüklənmək məqsədəuyğun deyil. Bütün komanda yoldaşlarıma uğurlar arzulayıram. İnanıram ki, komandamız bu yarışda da uğurlu nəticələr qazanmağa müvəffəq olacaq.

## "Öz vətənində dünya çempionu olmaqdan daha qürurverici bir şey ola bilməz"

**Elmar QASIMOV**



- Bizim cüdo üzrə hələ ki, yeganə dünya çempionumuz Elxan Məmmədovdur. O, 2013-cü ildə Rio-de Janeyroda bu nəticəni qazanıb. 5 il sonra, doğma vətəndə Elxanın uğurunu təkrarlamağı çox istəyirəm. Əgər bacarsam bu nailiyyəti heç vaxt unutmayacağam. İdmanda ən yüksək zirvə Olimpiya çempionluğudur. Lakin öz vətənində dünya çempionu olmaqdan daha qürurverici bir şey ola bilməz. Hazırlıqlarımız öz qaydasında davam edir. Yarışa çox ciddi hazırlaşırıq. Bu yarışda əsas rəqiblərimiz arasında Yaponiya komandasını qeyd edə bilərəm. Onların hər biri böyük texnikaya sahibdirlər. Rusiyanın, Belarusun, Koreyanın da çox güclü tatami ustaları var. Azarkeş dəstəyinə çox ehtiyacımız olacaq. İnanıram ki, tamaşaçılar bizi tək qoymayacaqlar və biz də onları uğurlu nəticələrimizlə sevindirəcəyik"

## "Komandamız heç bir ölkənin cüdoçularından çəkinmir"

**Hidayət HEYDƏROV**



- Hər birimizin üzərinə böyük məsuliyyət düşür. Yaxşı bilirik ki, hamı bizə inanır, etimad göstərir. Elə etmək lazımdır ki, onların ümidlərini doğruldaq. Çalışacağıq ki, bütün gücümüzü ortaya qoyaq və parlaq qələbələr qazanaq. Çempionatda çox güclü rəqiblər olacaq. Azərbaycan cüdo son illər öz kütləviliyi ilə seçilsə də, Yaponiya cüdonun vətəni sayılır. "Gündoğar ölkə"nin cüdoçuları bizim üçün ən ciddi rəqiblərindən biridir. Həmçinin Rusiya və Belarus komandalarının heyətində də çox təcrübəli cüdoçular var. Buna baxmayaraq, əminəm ki, öz bacarığımızı nümayiş etdirə biləcəyik. Komandamız heç bir ölkənin cüdoçularından çəkinmir. Demək olar ki, heyətdə dünyanın ən güclü tatami ustaları yer alıb. Bu idmançılar Olimpiya, dünya və Avropa çempionatlarında fərqləniblər.

## "Məsuliyyətimiz də dəfələrlə artır"

**Orxan SƏFƏROV**



- Bəziləri düşünür ki, dünya çempionatının ölkəmizdə keçirilməsi bizim işimizi asanlaşdırır. Lakin nəzərə almaq lazımdır ki, məsuliyyətimiz də dəfələrlə artır. Uduzmaq həmişə insanı məyus edir. Lakin doğma divarlar arasında, sənə dəstək olmağa gələn azarkeşlərin gözü qarşısında məğlub olmaq daha pisdir. Odur ki, səylə məşqlərimizi davam etdiririk. Öz çıxışımın necə olacağı ilə bağlı heç nə deyə bilmərəm. Mən dünya çempionatında mükafatçılar sırasında yer almışam. Lakin qızıl medal qazanmaq mənə nəsib olmayıb. Çalışacağam ki, Bakıdakı çempionatda bu arzumu reallaşdırım. Komanda yoldaşlarıma çox inanıram. Xüsusilə də 73 kq və 100 kq-da şanslarımız daha çoxdur. Hidayət Heydərov da, Rüstəm Orucov da qızıl medal qazanmağa qadirdirlər. Arzulayıram ki, onlardan heç olmasa biri çempion olsun.

## "Bu, əsl tarixdir"

**Aişə QURBANLI**



- Mən 10 ildir ki, cüdo ilə məşğulam. İdmana başladığım ilk illər kimsə mənə desə idi ki, nə vaxtsa dünya çempionatı Bakıda keçiriləcək, düzü, inanmazdım. Lakin həmin tarixi günə indi az vaxt qalıb. Bu, çox sevindiricidir. İlk dəfə cüdo üzrə dünya çempionatı Bakıda təşkil olunacaq və mən bu möhtəşəm yarışda iştirak edəcəyəm. Bu, əsl tarixdir. Yarışlar çox çətin olacaq. Hər şeyi saniyələr həll edəcək. Əgər medal qazansam, onu məşqçilərimə və valideynlərimə həsr edəcəyəm.

*Xəbərlər*

## Ada təmsilçiləri Bakıya 4 idmançı ilə gəlirlər

Yunanıstan millisi Bakıda keçiriləcək cüdo üzrə dünya çempionatında dörd idmançı ilə təmsil olunacaq.

Məşqçilər korpusu dünya çempionatında kişilərin yarışında Georgis Azoidis (73 kq), Aleksios Ntanatsidis (81 kq) və Teodoros Tselidisə (90 kq) şans verəcək.

Qadınların mübarizəsində isə Elizavet Teltsidou (70 kq) birincilik uğrunda mübarizə aparacaq.

* * *

Rusiya millisinin Bakıda cüdo üzrə dünya çempionatında iştirak edəcək heyəti açıqlanıb. Bakı mundialında 18 rusiyalı cüdoçu tatami üzərinə çıxacaq.

Dünya çempionatında kişilərin yarışında Beslan Mudranov (60 kq), Həsən Xalmurzayev (81 kq), Mixail İqolnikov (90 kq), Kiril Denisov (100 kq) kimi təcrübəli cüdoçular tatami üzərinə çıxacaqlar.

Qadınlar arasında isə İrina Dolqova (48 kq), Nataliya Kuzyutina (52 kq), Anastasiya Konkina (57 kq), Darya Davıdova (63 kq) kimi cüdoçular birincilik uğrunda mübarizə aparacaqlar.

* * *

Finlandiya millisinin Bakıda keçiriləcək cüdo üzrə dünya çempionatı üçün heyəti açıqlanıb. Bakı mundialında 4 finlandiyalı cüdoçu tatami üzərinə çıxacaq. Məşqçilər korpusu dünya çempionatında kişilərin yarışında Aatu Laamanen və Jaakko Alliyə (hər ikisi 90 kq) şans verəcək.

Qadınların mübarizəsində isə Katri Kakko (52 kq) və Emilia Kanerva (63 kq) birincilik uğrunda mübarizə aparacaqlar.

* * *

Çin milli komandası Bakıda keçiriləcək cüdo üzrə dünya çempionatında tam heyətlə təmsil olunacaq. Bakı mundialında 18 çinli cüdoçu tatami üzərinə çıxacaq.

Məşqçilər korpusu dünya çempionatında kişilərin yarışında Yi Şanq (60 kq), Jiqianq Vu (66 kq), Hebiliqe Bu, Sueven Vanq (hər ikisi 90 kq) kimi təcrübəli cüdoçulara şans verəcək.

Qadınların mübarizəsində isə Yao Sionq (48 kq), Şuqen Vu (52 kq), Tonqjuan Lu, Ven Janq (hər ikisi 57 kq), Yan Vanq və Sin Su (hər ikisi 78 kq-dan yuxarı) birincilik uğrunda mübarizə aparacaq.

*Səhifəni hazırladılar:*
*Azər Əlizadə,*
*Kənan Novruzov*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

***Dövlətin gənclər siyasətinin qarşıya qoyduğu məqsəd və vəzifələrin icra edilməsində səmərəli fəaliyyət göstərən qurumlardan biri də rayon gənclər və idman idarələridir. Ölkə başçısının Sərəncamı və tapşırığı əsasında paytaxtda və bölgələrdə inşa edilib istifadəyə verilən Olimpiya idman kompleksləri, gənclər evləri və mərkəzləri həmin idarələrin öz işlərini düzgün istiqamətdə aparmasında bilavasitə böyük rol oynayır. Təbii ki, müasir standartlara cavab verən, əlverişli şəraitlə təmin olunan belə qurğular həm memarlıq, həm də gənc nəslin sağlam böyüməsi baxımından çox əhəmiyyətlidir.***

***Ölkədə idman və Olimpiya Hərəkatının təbliğində özünəməxsus dəsti-xətti olan "Olimpiya dünyası" qəzeti nəinki paytaxtda, eləcə də, regionlarda idmanın, bədən tərbiyəsinin təbliğinə böyük önəm verir. Qəzetimiz "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" layihəsi çərçivəsində bu dəfə Azərbaycanın dilbər guşələrindən olan Oğuz rayonunun idman həyatına üz tutub.***

# Regionlarda yaradılan şərait gənc nəslin xoşbəxt gələcəyinə yönəldilib

Oğuz rayonu Azərbaycanın ən qədim yaşayış məskənlərindən biridir. 7 alban məbədinin mövcud olduğu, paytaxt Bakıdan cəmi 360 km məsafədə yerləşən, əsrarəngiz gözəl təbiətə malik olan bölgə, həm də turizm üçün əlverişli məkandır. Rayonun ərazisində 39 arxeoloji və memarlıq abidəsi mövcuddur. Böyük Qafqazın cənub yamacında yerləşən Oğuz rayonunun ən yüksək zirvəsi Məlkəmud dağıdır (3879 m). Dağlar qoynunda yerləşən və şəlalələri ilə zəngin olan Oğuzun insanları çox mehriban və qonaqpərvərdirlər. Qeyd edim ki, Azərbaycanın Milli Qəhrəmanı Koroğlu Rəhimov məhz Oğuz rayonundandır.

Qeyd edək ki, Oğuz Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Qurbanov idmana çox bağlı insandır. Rayonun idman həyatı ilə daim yaxından maraqlanan Eyvaz müəllim idmançılardan və gənclərdən öz dəstəyini əsirgəmir.

Ölkədə gənclər siyasətinin uğurla aparılmasında əsas məsuliyyət təbii ki, gənclər və idman idarələrinin üzərinə düşür. Oğuz Rayon Gənclər və İdman İdarəsi (Gİİ) Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin struktur qurumu kimi Oğuz rayonunda gənclərlə iş, bədən tərbiyəsi və idman sahələrində dövlət siyasətini uğurla həyata keçirir. İdarəyə Ramiz Mahmudov rəhbərlik edir. Ramiz müəllim məzuniyyətdə olduğundan Oğuz rayonunun idman həyatı ilə yaxından tanış olmaq və insanların asudə vaxtlarını necə keçirmələri barədə ətraflı məlumat almaq üçün Oğuz Rayon Gənclər və İdman İdarəsinin rəis müavini Şaiq Rüstəmovla görüşdük.

## Əldə olunan nəticələr görülən işlərin bəhrəsidir

Şaiq Rüstəmov 15 il rayonun Bucaq kəndində idman müəllimi işləyib, idmana çox bağlı insandır. Şaiq müəllim bizə Oğuz rayonunda insanların asudə vaxtının səmərəli təşkilindən, idman, bədən tərbiyəsi və gənclər sahəsində görülən işlərdən danışdı: "Oğuz rayonunda 32 min yerli əhali, 9 min məcburi köçkün və qaçqın yaşayır. İnsanların əsas məşğuliyyəti tütünçülük və fındıqçılıqdır. Oğuz Rayon Gənclər və İdman İdarəsi insanların işdən sonra asudə vaxtlarının səmərəli təşkili, uşaq və gənclərin idmana cəlb edilməsi istiqamətində əlindən gələni etməyə çalışır. Rayon ərazisində 40 idman obyekti mövcuddur ki, onlardan 26-sı sadə idman qurğusudur. Təhsil ocaqlarında yerləşən 11 idman zalının hər biri işlək vəziyyətdədir. Ölkə başçısının Sərəncamı əsasında inşa edilən Oğuz Olimpiya İdman Kompleksi müasir standartlara cavab verməklə yanaşı, şəhərimizə xüsusi gözəllik verir. Biz mühüm idman tədbirlərini məhz burada keçiririk.

Rayonumuzda idmanı çox sevirlər. Buna sübut olaraq deyə bilərəm ki, futbol üzrə Oğuz komandası iki il dalbadal "Sevinc kuboku"nun qalibi olub. Rayonun cüdo, sambo, aykido komandaları da fəallıq göstərirlər. Basketbol və tennis komandamız ötən il yaradılıb. Qeyd edim ki, Azərbaycan Tennis Federasiyası ilə sıx əməkdaşlıq edirik. Federasiya tərəfindən bizə daim dəstək göstərilir. Atletika idman növünə uşaq və gənclərimiz arasında böyük maraq var. Gənclər və İdman Nazirliyinin təqviminə əsasən, hər il payız və yay mövsümündə müxtəlif idman növləri üzrə yarışlar təşkil edirik. Yarışlarda fərqlənənlər kubok, medal və qiymətli hədiyyələrlə mükafatlandırılırlar".

Rayon Gənclər və İdman İdarəsinin rəis müavini bütün regionlarda olduğu kimi Oğuzda da peşəkar kadrlara, yəni məşqçilərə böyük ehtiyac duyulduğunu dilə gətirdi. Şaiq müəllim uşaq və gənclərin idmanın sirrlərinə dərindən yiyələnməsində məşqçi-müəllimlərin rolunu xüsusi qeyd etdi.

Oğuz rayon Gənclər və İdman İdarəsinin ötən il və bu ilin 6 ayı ərzində gördüyü işlərə nəzər saldıqda gənclər və idman sahəsində görülən işlərin həcmini aydın görmək olur. Qeyd edək ki, ötən il ölkəmizin ev sahibliyi etdiyi IV İslam Həmrəyliyi Oyunları ilə əlaqədar olaraq Oğuz rayonu orta məktəb şagirdləri arasında yüngül atletika üzrə rayon birinciliyi keçirilib. 24 komandanın iştirakı ilə təşkil edilən birincilikdə qızlar 60 metr və 300 metr, oğlanlar isə 60 və 500 metr məsafəyə qaçış, uzunluğa tullanma yarışlarında mübarizə aparıblar. Yarışda birinci yeri Sincan kənd orta məktəbinin şagirdləri tutublar. 2-ci və 3-cü yerlərə isə müvafiq olaraq Oğuz şəhər 1 saylı orta məktəbin və 3 saylı məktəb-liseyin komandaları yiyələniblər.

Oğuz idmançıları 2017-ci ildə XI Respublika Oyunlarının proqramında daxil olan yüngül atletika üzrə İsmayıllıda təşkil edilən zona yarışlarında da uğurla çıxış ediblər. Aprelin 12-16-da keçirilən yarışlarda oğlan və qız atletlər 60 metr, 300 metr məsafəyə qaçış, uzunluğa tullanma, 4x80 metr məsafəyə estafet yarışlarında qüvvələrini sınayıblar. İsmayıllı Olimpiya İdman Kompleksində keçirilən zona yarışlarının qalibi adını məhz Oğuz idmançıları qazanıblar.

Rayonda mütəmadi olaraq futbol üzrə böyüklər və kiçiklər arasında yarışlar keçirilir. Burada hər il kiçikyaşlı oğlan və qızlar arasında "Açıq əyləncəli futbol məktəbinin" təşkil edilməsi artıq ənənə halını alıb. 2017-ci ildə iyun ayında növbəti belə tədbir 98 nəfərin iştirakı ilə keçirilib. Futbol məktəbinin təşkil edilməsi rayonda futbola maraq göstərən uşaqların seçilməsində, onların yetişdirilməsində böyük rol oynayır. 12-13 yaşlı kiçik futbolçular arasında "Sevinc" kuboku yarışları da Oğuzda hər il keçirilir. 9-14 yaşlılar arasında "Sevinc" kuboku uğrunda rayon birinciliyi bu ilin aprel ayında baş tutub.

28 May Respublika Günü ilə əlaqədar hər il futbol üzrə böyüklər arasında rayon çempionatı keçirilir. Ötənilki turnirdə 24 kənd, 1 şəhər komandası olmaqla 16 komanda (410 iştirakçı) iştirak edib. 24 gün (14 may-6 iyun) davam edən yarışlarda finala vəsiqəni Bayan və Zərrab kənd komandaları qazanıblar. Oğuz Olimpiya İdman Kompleksində keçirilən gərgin final qarşılaşması ikincinin xeyrinə başa çatıb. Qalib komandalar Oğuz Rayon Gənclər və İdman İdarəsi tərəfindən kubok, diplom və qiymətli hədiyyələrlə mükafatlandırlıb. Builki yarış isə iyunun əvvəlinə təsadüf edib. Həvəskarlar arasında ənənəvi futbol üzrə rayon birinciliyinin qalibləri idarə tərəfindən mükafatlandırılıblar.

## Oğuz məktəbliləri arasında hərbi idman oyunlarına böyük maraq var



"Şahinlər" hərbi idman oyunlarına Oğuz məktəbliləri arasında böyük maraq var. Çünki onlar torpaqlarımızın 20 faizini düşmən tapdağı altında olduğunu bilir və yaxşı dərk edirlər ki, düşmənlə mübarizə aparmaq üçün fiziki cəhətdən güclü olmalıdırlar. Ötən il aprelin 1-də Oğuz şəhər 2 saylı tam orta məktəbdə rayonun ümumtəhsil məktəblərinin komandaları arasında yarış keçirilib. Gənc hərbçilər sıra hazırlığı, tüfəngdən hədəfə atəş açmaq, fiziki hazırlıq, maneələrin dəf edilməsi və mülki müdafiə üzrə yarışlarda iştirak ediblər. Yarışlara ev sahibliyi edən 2 saylı tam orta məktəbin komandası rəqiblərini geridə qoyaraq qalib adını qazanıb. Oğuz şəhər 1 saylı məktəbin komandası II, Muxas kənd orta məktəbinin komandası isə III yeri tutub. Bu il həmin yarışlar aprel ayında reallaşdırılıb.

Ötən il aprelin 13-17-də İsmayıllı şəhərində "Vətənin müdafiəsinə hazıram" adı altında poliatlon üzrə çoxnövçülüyün respublika çempionatının zona yarışları təşkil edilib. 4 növ (100 metr və 2000 m qaçış, turniklə dartınma və qumbaraatma) üzrə keçirilən yarışlarında Oğuz komandası 4-cü yeri tutub. Bu il isə uşaq və gənclər "Vətənin Müdafiəsinə Hazıram" poliatlon çoxnövçülüyü üzrə rayon birinciliyində güclərini sınayıblar.

## Qədim diyarın istedadlı gəncləri

Müsahibim gənclərlə, xüsusilə, savadlı, istedadlı gənclərlə işləməyin böyük zövq olduğunu diqqətimizə çatdırdı. "Gənclərlə işləmək insana ruh verir və qocalmağa qoymur. İstedadlı və bilikli gənclərlə ünsiyyətdə olmaq isə bir ayrı aləmdir. İdarəmiz yaradıcılıq mərkəzləri və digər təşkilatlarla əməkdaşlıq şəraitində istedadlı gənclərin üzə çıxarılmasında mühüm işlər görür. İstedadlı gənclərimizdən Ləman Səlimzadə, Səbinə Rəşidli, Cavidan Xudiyev və başqalarının adlarını çəkə bilərəm. Ümumiyyətlə, belə istedadlı uşaq və gənclərimiz çoxdur.



Belə gənclərdən biri də Azərbaycanın qızlardan ibarət milli komandasınln üzvü Validə Seyfəddinovadır. Validə idmanda əldə etdiyi uğurlara görə çox sevinir və gənclər üçün yaradılan şəraitə görə dövlətimizə minnətdarlığının bildirir: "İdmanın digər növləri kimi, qadın futbolunun inkişaf etdirilməsi də dövlətimizin marağındadır. Bu sahənin inkişafına, qızların futbola cəlb olunmasına dövlətimiz, əlaqədar qurumlar tərəfindən hər cür qayğı və dəstək göstərilir. Odur ki, mən dövlətimiz, müəllimlərimə dərin təşəkkürümü bildirir, qızları bu idman növü ilə məşğul olmağa çağırıram". Validə Seyfəddinova Qumlaq kəndinə doğulub boya-başa çatıb. Hazırda "Sumqayıt" klubunun şərəfini qoruyur. 12 xarici ölkədə olan Validənin ən böyük arzusu Azərbaycanı beynəlxalq yarışlarda uğurla təmsil etmək və xarici klublarda oynamaqdır", - deyə Şaiq Rüstəmov bildirdi.

## Oğuzda gənc nəslin sağlam ruhda böyüməsinə böyük diqqət yetirilir

Oğuz rayon Gənclər və İdman İdarəsinin 2018-ci ilin 6 ayrı ərzində gördüyü işlər onu deməyə əsas verir ki, rayonda gənclər, idman sahəsi daim diqqətdə saxlanılır. Belə ki, xalqımız üçün hüznlü olan 20 Yanvar hadisələrinin 28-ci ildönümü münasibətilə rayonun ümumtəhsil məktəblilərinin 8, 10, 12, 14 və 16 yaşlı məktəbliləri (qızlar və oğlanlar) şahmat üzrə Oğuz rayon birinciliyi və oğlanlardan ibarət ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri arasında voleybol idman növü üzrə rayon birinciliyi təşkil edilib. Bundan başqa, fevral ayında "Gənclər günü" münasibətilə yeniyetmə və gənc idmançılar sərbəst güləş üzrə açıq Oğuz rayon birinciliyində qüvvələrini sınayıblar. Eyni zamanda, Gənclər Günü münasibətilə "Gələcəyə inamla və birgə addımlayaq" mövzusunda rayonun fəal gənclərinin iştirakı ilə dəyirmi masa təşkil edilib.

5 mart "Bədən Tərbiyəsi və İdman Günü" də Oğuz rayonunda təntənə ilə qeyd edilir. Bu münasibətlə bu il idman günündə Oğuz Olimpiya İdman Kompleksində rayonun idman ictimaiyyətinin iştirakı ilə "İdman naliyyətlərimiz "adlı toplantı keçirilib. Uşaq və yeniyetmələt isə stolüstü tennis üzrə rayon birinciliyində mübarizə aparıblar.

Martın 15-də Bilik evində "Novruz" adət-ənənələrimizin və milli-mənəvi dəyərlərimizin gənclər arasında təbliği məqsədilə dəyirmi masa və martın 19-da isə Oğuz rayon Mədəniyyət Mərkəzində Novruz bayramı münasibətilə gənclərin iştirakı ilə ümumrayon şənliyi təşkil edilib.

Ümummilli lider Heydər Əliyevin anım günü münasibətilə şahmat idman növü üzrə ümumtəhsil məktəblərinin aşağı sinif şagirdləri arasında şahmat, velosiped, stolüstü tennis, yeniyetmələr və gənclər arasında sərbəst güləş üzrə rayon birinciliklərinin təşkili isə may ayına təsadüf edib. Oğuz məktəbliləri ümummilli liderin anadan olmasının 95-ci ildönümü münasibətilə həm də asfalt üzərində rəsm müsabiqəsində iştirak ediblər.

15 iyun "Qurtuluş Günü" münasibətilə yeniyetmə və gənclər arasında sərbəst güləş və dama üzrə rayon birinciliyinin təşkili də bu il ərzində təşkil edilən tədbirlər siyahısındadır.

Bu ilin iyul ayında Oğuzda Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunan "Bölgələrdən bölgələrə" layihəsi adı altında yaradıcılıq festivalı keçirilib. "100 illik tariximiz" devizi adı altında keçirilən bu layihə zəngin tarixə, dövlətçilik ənənələrinə malik olan Azərbaycanın bütün rayonlarını əhatə etməklə yanaşı, şəhər və rayonlara biri-birinin mədəni zənginliyi, sənətkarlıq irsi, incəsənəti ilə tanış olmaq imkanı yaradır. Belə tədbirlərin keçirilməsində məqsəd Azərbaycanın inkişaf etməkdə olan bölgələrini tanıtmaq, xalqımızın milli mənəvi dəyərlərini təbliğ etmək, eləcə də, regionların mədəni potensialını nümayiş etdirməkdir. İyul ayının 27-də rayonun mədəniyyət və istirahət parkında təşkil olunan tədbirdə rayon ictimaiyyətinin nümayəndələri, yerli sakinlər, mədəniyyət işçiləri iştirak edirdilər. Təbii ki, belə festivalların təşkili tariximizin, adət-ənənələrimizin, milli mənəvi dəyərlərimizn qorunub saxlanmasında əvəzsiz rol oynayır.

## İdmançıların ən sevimli məkanı

Oğuzun girişində yerləşən Oğuz Olimpiya İdman Kompleksi şəhərə xüsusi gözəllik verir. 2008-ci il sentyabrın 20-də istifadəyə verilən və 4,5 hektar ərazidə yerləşən kompleksin əsas korpusuna 575 tamaşaçı yerlik tribunaları olan universal idman salonu, trenajor, 100 yerlik konfrans salonları, restoran-bar, habelə inzibati otaqlar daxildir. Digər korpusda 25 metrlik üzgüçülük hovuzu vardır. Kompleks 1850 yerlik tribunaları olan və beynəlxalq standartlara cavab verən futbol stadionu, voleybol, basketbol meydançaları, tennis kortuna malikdir. Burada idmançıların qalması və istirahəti üçün hərəsi dörd nəfərlik 5 kottec fəaliyyət göstərir.

Kompleksdə idmançılar üçün yaradılan şəraitlə tanış olmaq üçün Oğuz Olimpiya İdman Kompleksinin direktoru Anar Hüseyni ilə görüşdük. Bizi səmimi qarşılayan Anar müəlim kompleksdə idmançıları yaradılan şəraitdən, gənclərin idmana bağlılığından söhbət açdı: "Azərbaycan Pedaqoji İnstitutunun (red.indiki APU) gənclərin çağırışaqədər fiziki hərbi hazırlıq fakültəsini bitirmişəm. İdmana böyük marağım var. Boyumun hündür olması (1m 90 sm) mənə voleybol oynamağa imkan verib. Təhsil aldığım ali məktəbdə və doğma Oğuz rayonunda voleybol komandasının kapitanı olmuşam. Orduda xidmət etdikdən sonra müəyyən işlərdə çalışmışam. 2014-cü ildə Oğuz Olimpiya İdman Kompleksinin direktoru vəifəsinə təyin olunmuşam. Kompleksdə əsasən, cüdo, üzgüçülük, velosiped, güləş idman növləri üzrə məşqlər aparılır. Çalışırıq ki, burada məşq edən idmançıların, uşaq və gənclərin rahatlığı üçün yüksək səviyyədə xidmət göstərək.

Bu ilin mart ayında müəyyən idman növləri üzrə zona yarışları təşkil etmişik. May ayında keçirilən cüdo rayon birinciliyində 10 rayonun komandası iştirak edirdi. Bakı və Sumqayıtdan da idmançılar gəlmişdilər. Kollektivdə peşəkar, təcrübəli məşqçilərimiz kifayət qədərdir. Hansı ki, onların yetirmələri rayon və respublika birinciliklərində mükafatalayiq yerləri tuturlar".

Anar Hüseyni uşaq və gənclərin idmana cəlb olunmasında valideynlərin rolunu yüksək qiymətləndirdi: "İdmançı olmaq, özü də peşəkar idmanla məşğul olmaq asan deyil. Bu məsələdə valideynlərin də üzərinə böyük məsuliyyət düşür. Övladına diqqət yetirən, onunla maraqlanan valideynlər onun gələcəkdə uğurlar qazanmasında bilavasitə əhəmiyyətli rol oynayırlar. Dövlətimiz tərəfindən ölkəmizdə idmançılar üçün hər bir şərait yaradılıb. Uğur qazanmaq isə gənc nəslin öhdəsinə qalır".

Kompleksdə olduğumuz müddətdə 13 saylı İxtisaslaşdırılmış Olimpiya İdman Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinin yeniyetmələrdən ibarət cüdo komandası təlim-məşq toplanışında idi. Cüdoçuların məşqi və onlar üçün burada necə şərait yaradıldığını öyrənmək üçün məktəbin məşqçi müəllimi Ruslan Yunusovun fikirlərini öyrəndik. Əvvəllər peşəkar idmanla məşğul olan, cüdo üzrə Azərbaycan çempionu Ruslan müəllim kompleksdə idmançı və məşqçi heyəti üçün yaradılan şəraitdən razılığını bildirdi: "Yay məşqlərimizi burada keçiririk. Bizim üçün yaradılan şəraitə, diqqətə görə kompleksin rəhbəri Anar müəllimə, ümumiyyətlə, bütün kollektivə minnətdarlığımı bildirirəm. Üzgüçülük hovuzu, qaçış zolağı ürəyimizcə oldu. Yeməyindən tutmuş məşqlərə qədər hər şey yüksək səviyyədə təşkil olunub".

Ruslan müəllim məşqçi peşəsinin çətinliyindən, məsuliyyətindən də danışdı: "Vaxtilə Tərlan Həsənovun tələbəsi olmuşam. İdmanda əld etdiyim uğurları məhz bu insanın sayəsində qazanmışam. Məşqçi olmaq insandan səbr, qətiyyət, iradə və ən əsası, peşəkarlıq tələb edir. 12 ildir ki, uşaq və gənclərə cüdonun sirrlərini öyrədirəm. Yetirmələrimdən İbrahim Bayramlı Avropa Yeniyetmələrin Olimpiya Festivalının mükafatçısıdır. Azərbaycanın bayrağını beynəlxalq yarışlarda dalğalandıran, dövlət himnimizi səsləndirən idmançılar hamımızın fəxridirlər. Dövlətimiz idmançılar üçün hər bir şərait yaradıb, onlara yüksək səviyyədə diqqət və qayğı göstərilir".

Yekunda bu qənaətə gəlmək olur ki, dövlətimizin yürütdüyü gənclər və idman siyasəti, nəinki paytaxt Bakıda, regionlarda da uğurla aparılır. Oğuz rayonunda olarkən bunun bir daha şahidi olduq.

***Səadət Hakıyeva,***
***Bakı-Oğuz-Bakı***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

# Boksçular açıq birincilikdə qüvvələrini sınayıblar



İlham Əliyev adına Olimpiya İdman Kompleksində "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında keçirilən yeniyetmə və gənclər arasında boks üzrə Naxçıvan şəhər açıq birinciliyinə yekun vurulub. Naxçıvan Muxtar Respublikası Boks Federasiyası və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən açıq birincilikdə Naxçıvan şəhərinin idmançıları ilə yanaşı, Kəngərli, Babək və Şərur rayonlarının boksçuları da öz güclərini sınayıblar. Beynəlxalq Boks Federasiyasının qaydalarına uyğun keçirilən birincilikdə 25 çəki dərəcəsində 70-ə yaxın boksçu yarışıb.

Sonda hər çəki dərəcəsində yer tutan idmançılar Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları ilə mükafatlandırılıblar.

# "Qəbələ"nin UEFA Gənclər Liqasındakı rəqibi müəyyənləşib



Futbol üzrə UEFA Gənclər Liqasında Çempionlar yolunun püşkatma mərasimi keçirilib. İsveçrənin Nyon şəhərində təşkil olunan tədbirdə iki mərhələnin cütləri bəlli olub. Yarışa bu yolla qatılan komandalar arasında "Qəbələ" də yer alıb.

Ötən mövsüm Gənclər Liqasının qalibi olan "Qəbələ" turnirdə Moldovanın "Şerif" klubu ilə üzüzə gələcək. İlk oyun oktyabrın 3-də, cavab matçı 24-də təşkil olunacaq. Azərbaycanı ikinci dəfə bu turnirdə təmsil edəcək "Qəbələ" ilk görüşünü evdə keçirəcək.

Bu cütün qalibinin ikinci raunddakı rəqibi "Herta" (Almaniya) - "Lex" (Polşa) duelində müəyyənləşəcək. Bu cütlərdə qalib gələn komandalar arasında matçlar noyabrın 7-də və 28-də keçiriləcək. Emin İmaməliyevin baş məşqçisi olduğu komanda ilk sədd adlasa, II mərhələyə evdə start verəcək.

Xatırladaq ki, bu iki mərhələni adlayan 8 komanda play-offa vəsiqə qazanacaq. Onlar play-offda Çempionlar Liqasında qrup ikincisi olan komandalarla 1/8 finala vəsiqə uğrunda mübarizə aparacaqlar.

## Kazanda sürətli şahmat üzrə beynəlxalq turnirə start verilib

Kazanda sürətli şahmat üzrə 40-cı Rəşid Nəcməddinov kubokuna start verilib. Turnirdə 79 şahmatçı, o cümlədən 31 qrossmeyster mübarizə aparır. Yarışda ölkəmizi qrossmeyster Türkan Məmmədyarova (2375) təmsil edir.

Digər adı "Rusiya Rapid Qran-Prisi" olan bu turnirin qalibləri sentyabrın 21-də müəyyənləşəcək. İsveçrə sistemi üzrə keçirilən yarışlar 11 turdan ibarətdir. Oyunlarda nəzarət vaxtı 15 dəqiqə, üstəgəl birinci gedişdən başlayaraq hər gediş üçün 10 saniyə müəyyən edilib.

Sürətli şahmat üzrə Rəşid Nəcməddinov kubokunun ümumi mükafat fondu 450 min rubla bərabərdir.

# Bakı Olimpiya Stadionunda yeniliklər




Bakı Olimpiya Stadionunda bir sıra yeniliklər həyata keçirilib.

Yeniliklərə səbəb UEFA Millətlər Liqasının oyunlarının bu dəfə fərqli əməliyyat protokolları çərçivəsində - 2019-cu il UEFA Avropa Liqasının final oyununun qaydaları əsasında təşkil edilməsidir.

Yekun protokol qaydaları UEFA, AFFA, Yerli Əməliyyat Komitəsi və Bakı Olimpiya Stadionu tərəfindən nizamlanaraq təsdiqlənəcək və oyun təşkilatçılığının bütün sahələrində tətbiq ediləcək. Bundan sonra azarkeşlər və digər müştəri qrupları (KİV nümayəndələri, VIP qonaqlar, könüllülər) yeni quraşdırılmış turniketlər vasitəsilə stadiona daxil olacaqlar. Həmin avadanlığın əməliyyat sistemləri həm barkodları, həm də radio tezlik identifikasiyalarını oxuya biləcək.

Turniketlərin məqsədi biletlərin yoxlanılmasını sürətləndirmək və azarkeşlərin bilet nöqtələrinə daha tez çatmasını təmin etməkdir. Yeniliklərdən biri də əlilliyi olan şəxslər üçün turniketlərin quraşdırılmasıdır. Ümumilikdə quraşdırılan 124 turniketin 110-u ümumi istifadə, 4-ü əlilliyi olan şəxslər üçün nəzərdə tutulub, 10 turniket isə VIP zonalardadır.

Bundan başqa, girişlərin yerləşməsi də dəyişdirilib. Belə ki, əvvəllər tamaşaçı girişləri qütblərə uyğun (Şimal, Cənub, Şərq və Qərb) adlanırdısa, indi isə bu yerləşmə rənglərə (qırmızı, göy, sarı, yaşıl) görə, qapı nömrələri isə 1-dən 22-ə qədər dəyişəcək. Bu yenilik qonaqların matç və digər tədbirlərdə stadiona yönəldilməsini əhəmiyyətli dərəcədə asanlaşdırır.

Oturacaqların sayında da dəyişiklik olub. Atletika yarışlarında əlavə olaraq istifadə edilə bilən kamera platformaları azarkeş üçün oturacaqlarla əvəzlənib.

Jurnalistlər üçün "Mix-zona"ya giriş ayrıca qapıdan olacaq. Eksklüziv "mix-zona"da fəaliyyət göstərən jurnalistlərə akkreditasiya üçün əlavə bir etiket təqdim olunacaq.

Yeniliklər tamaşaçı xidmətlərinə də təsir edəcək. Beləliklə, tapıntılar bürosunun mexanizmi daha zərif olacaq. Hər bir maddə tamaşaçı xidmətlərinin nümayəndəsinə köçürüləcək və formaları doldurduqdan sonra stendlərdə olan tapıntılar bürosunun ofisinə yerləşdiriləcək. İtən əşyanın sahibləri stadionun nümayəndələrinə bir həftə ərzində müraciət edə bilərlər. Eyni zamanda, itirilən əşyaların siyahısı Bakı Olimpiya Stadionunun rəsmi saytında dərc olunacaq. Bu müddətdə əşyanın sahibi tapılmazsa, tapılan əşya protokolu ilə birlikdə paketlənərək təhlükəsizlik xidmətlərinə təqdim ediləcək.

Stadionun ərazisində daimi tibb məntəqəsi də fəaliyyət göstərir.

# "Ferrari"yə bolidlərdəki kameraya soyuducu paketlər örtmək qadağan edilib



Formula-1-in yarış direktoru Çarli Uaytinq qeyd edib ki, FIA (Beynəlxalq Avtomobil Federasiyası) "Ferrari"yə pilotun başındakı kameraya soyuducu paket örtməyi qadağan edib. İtaliya komandası bunu guya elektronikanı soyutmaq üçün edir, lakin bəzi rəqiblərin fikrincə, "Ferrari" bu üsulla sükan çarxı və cihaz paneli ilə hansısa manipulyasiyaları gizlətməyə çalışır. Belə ki, buz paketi kamera çəkilişini əngəlləyir. FIA-nın tövsiyəsi əsasında İtaliya Qran-Prisində soyuducu paket götürülsə də, "Ferrari" onu çətirlə əvəz edib.

Çarli Uaytinqin sözlərinə görə, digər federasiyalar və komandalar kamera görüntüsünün məhdudlaşdırılmasından narazı qalıblar. "Ferrari" buna cihazın qızması fikri ilə bəraət qazandırıb. "Kameraların sükanı və cihaz panelini çəkməsinə icazə verilməsə, söz-söhbət yaranacaq. Əminəm ki, bu məsələdə qanunazidd heç nə yoxdur, çünki "Ferrari"nin istifadə etdiyi proqram təminatı FIA-ya dəqiqliyi ilə məlumdur", - deyə Formula-1-in yarış direktoru bildirib.

* * *

Dünya çempionatında 150-ci dəfə trasa çıxacaq "Reanult"un alman pilotu Niko Hülkenberq Formula-1 çempionatının Sinqapur Qran-Prisi ərəfəsində düşüncələrini paylaşıb.

Hülkenberq deyib: "Bu, karyeramda mühüm hadisə, həmçinin Formula-1-də uzun müddətdir çıxış etdiyimi və bir çox yarışları arxada qoyduğumu göstərən xüsusi mərhələdir. Karyeramın bu mərhələsində 150-ci Qran-Pri sadəcə bir say kimi səslənir. Qarşıda bizi pelotonun ortasında gərgin mübarizə gözləyir. Təcrübəmə güvənərək, özümü Sinqapurda müsbət uik-endə hazırlayıram".

Xatırladaq ki, Hülkenberq 2018-ci il mövsümündə şəxsi hesabda yeddinci yerdədir. Keçirilən 14 mərhələdən sonra Nikonun hesabında 52 xal var.

## Bölgə xəbərlər

# Cümhuriyyətin 100 illiyinə həsr olunmuş futbol turniri



Lerik Rayon Gənclər və İdman İdarəsi Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi münasibətilə bələdiyyələrin, idarə, müəssisə və təşkilatların komandaları arasında futbol üzrə rayon birinciliyi keçirib.

Turnirlə əlaqədar idarədə Təşkilat Komitəsi yaradılıb və oyunların idarə olunması üçün hakimlər kollegiyası təsis edilib. Püşkatmanın nəticələrinə görə 20 bələdiyyə və müəssisə komandası 4 qrupda mübarizə aparıb.

Maraqlı idman mübarizəsi şəraitində keçən yarışın qalibi Lerik bələdiyyəsinin "Kanalik" komandası olub.

Qalib komandalara Lerik Rayon Gənclər və İdman İdarəsinin kubok və diplomları təqdim edilib.

* * *

Astara Olimpiya İdman Kompleksində Gənclər və İdman Nazirliyinin, Azərbaycan Qarışıq Döyüş Növləri Mərkəzinin, Azərbaycan Pankration, Qrapling və MMA Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən qarışıq döyüş növləri üzrə klublararası açıq respublika kuboku yarışı başa çatıb.

İki gün davam edən yarışda ölkəmizin səkkiz şəhər və rayonunu təmsil edən 13 komanda qələbə uğrunda mübarizə aparıb.

Açıq respublika kuboku yarışında Astara (4 komanda), Lənkəran (2 komanda), Bakı (2 komanda), Masallı, Biləsuvar, Abşeron, Sumqayıt və Gəncə şəhər və rayonlarını təmsil edən 130 idmançı iştirak edib.

Komandalar beş yaş kateqoriyası (2009-2011, 2006-2008, 2003-2005, 1998-2000-ci illər təvəllüdlü) MMA, taktik və şut-fayt versiyaları üzrə 22 çəki dərəcələrində yarışıblar.

Yarışda astaralı idmançılar yüksək nailiyyətlər əldə edərək ümumilikdə 20 medal qazanıblar. Bu medallardan 8-i birinci, 7-si ikinci, 5-i isə üçüncü yerləri tutublar.

Peşəkar idmançılar arasında astaralı atlet Ülvi Qəmbərov (90 kiloqram) birinci yerə sahib olub. Yarışın yekun nəticələrinə əsasən "Astara" komandası birinci, "Lənkəran" ikinci və "Masallı" komandası üçüncü yerlərə layiq görülüb.

Qaliblər Azərbaycan Qarışıq Döyüş Növləri Mərkəzinin diplom və kuboku ilə mükafatlandırılıblar.

* * *

Astara rayonundakı şəhid Pəncəli Teymurov adına Siyəkü kənd boks məktəbində 2000-2008-ci illər təvəllüdlü boksçular arasında VMH poliatlon çoxnövçülüyü üzrə keçirilən rayon birinciliyi başa çatıb.

Yarışın açılış mərasimində Azərbaycan Respublikasının dövlət himni səsləndirilib, ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Astara Rayon Gənclər və İdman İdarəsinin rəisi müavini İqrar Cəfərov, Siyəkü kənd boks məktəbinin direktoru Eldar Əhədov və Astara Boks Mərkəzinin məşqçi-müəllimi Ayaz Baxşıyev şəhid Pəncəli Teymurovun Aprel döyüşlərində göstərdiyi igidlikdən, onun Vətənə, torpağa, milli-mənəvi dəyərlərimizə bağlılığı, müqəddəs şəhidlik zirvəsinə ucalması haqqında danışaraq yarış iştirakçılarına uğurlar arzulayıblar.

Yeniyetmə idmançılar "Turnikdə dartınma", "Qolların açılıb-bükülməsi", "Paralel qollarda çalışma", "Ağırlıq qaldırma" mərhələləri üzrə qüvvə və bacarıqlarını sınayıblar.

Yarışın yekun nəticələrinə əsasən, 2000-2004-cü illər təvəllüdlü yeniyetmələr arasında Adnan Kərimov, İqbal Məhərrəmov və Hüseyn Hüseynov müvafiq olaraq birinci, ikinci və üçüncü yerlərə sahib olublar.

2005-2008-ci illər təvəllüdlü idmançılar arasında isə Coşqun Şabanov, Kənan Cəfərov və Orxan Məmmədzadə fərqləniblər.

Qaliblər medal, diplom və hədiyyələrlə mükafatlandırılıblar.

* * *

Ağcabədi Olimpiya İdman Kompleksində təşkil olunan "Açıq əyləncəli uşaq futbol məktəbi" layihəsi üzrə kütləvi idman tədbirində Ağcabədi və Laçın rayonlarından olan 250 nəfər məktəbli iştirak edib.

Olimpiya İdman Kompleksinin futbol meydançasında təşkil olunan tədbirdə çıxış edən Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov ölkəmizdə həyata keçirilən sosial-iqtisadi inkişafdan, bütün sahələrdə olduğu kimi, gənc nəslə və idmanın inkişafına göstərilən dövlət qayğısından danışıb. "Açıq əyləncəli uşaq futbol məktəbi" layihəsi çərçivəsində keçirilən bu idman bayramının yetişməkdə olan gənc nəslin sağlam böyüməsində müsbət əhəmiyyətini qeyd edən Şahin Məmmədov bildirib ki, Ağcabədidə Olimpiya İdman Kompleksinin tikilməsi dövlətimizin idmana olan diqqətinin daha bir bariz nümunəsidir.



AFFA-nın birinci vitse-prezidenti, Milli Məclisin deputatı Rauf Əliyev, Milli Məclisin deputatları Tahir Rzayev və Aqil Abbas çıxış edərək, ölkəmizdə idmana göstərilən dövlət qayğısından, eləcə də layihənin əhəmiyyətindən danışıblar. Bildirilib ki, layihə uşaqların həyatını, yaşayış tərzini əyləncəli idman vasitəsilə bir qədər dəyişmək, onların idmana, o cümlədən futbola marağını artırmaq, uşaq futbolunun inkişafına dəstək vermək məqsədi daşıyır.

Mərasimdə uşaqlara müxtəlif idman geyimləri və ləvazimatları təqdim olunub. Sonra xüsusi idman forması geymiş uşaqlar əyləncəli futbol nümayiş etdiriblər.

# FUTBOL

## Favoritlərdən fərqli nəticələr



Sentyabrın 8-də UEFA Millətlər Liqasının növbəti oyunları ilə turnirin birinci turuna yekun vurulub. Üçüncü oyun gününün maraqla gözlənilən qarşılaşması "Uembli" stadionunda oynanılıb. "A" liqasının 4-cü qrupunda yer alan İngiltərə millisi İspaniya seçməsini qəbul edib. Oyunda hesabı erkən qolla 11-ci dəqiqədə ingilislər açıb. Luk Şoun cinah ötürməsini Markus Reşford dəqiq zərbə ilə tamamlayıb - 1:0. Qoldan üç dəqiqə sonra ispanlar hesaba tarazlıq gətirib. İspaniya millisinin hücumçusu Rodriqo rəqibin iki müdafiəçisini keçərək qapı qarşısına ötürmə verib. Topa ən tez yetişən Saul adını tabloya yazdırıb - 1:1. Fasiləyə qədər İspaniya seçməsi ikinci qolu da meydan sahiblərinin qapısından keçirib. Matçın 32-ci dəqiqəsində hakimin təyin etdiyi cərimə zərbəsindən sonra Tiaqo Alikantara rəqibin meydançasında olan Rodriqoya ötürmə verib. Sonuncu qapını dəqiq hədəf alıb - 1:2. Birinci hissə bu hesabla başa çatıb. Fasilədən sonra hər iki komandanın cəhdlərinə baxmayaraq hesab dəyişməyib.

Günün digər oyununda "A" liqasının 2-ci qrupunda yer alan son dünya çempionatının iştirakçıları İsveçrə və İslandiya yığmaları üz-üzə gəliblər. Görüş isveçrəlilərin böyük hesablı qələbəsi ilə başa çatıb (6:0).

"B" liqasının 3-cü qrupunda yer alan Şimali İrlandiya yığması doğma meydanda Bosniya və Herseqovina millisinə məğlub olub (1:2).

Turun üçüncü günündə Azərbaycan millisinin liqasında yer alan, 2-ci qrupda qərarlaşan San-Marino seçməsi səfərdə Belarus yığmasının qonağı olub. Görüş meydan sahiblərinin 5:0 hesablı qələbəsi ilə başa çatıb. Həmin qrupda yer alan Lüksemburq-Moldova görüşü 4:0 hesabı ilə lüksemburqluların qələbəsi ilə yekunlaşıb. "D" liqasının 3-cü qrupunda yer alan Azərbaycan millisi sentyabrın 7-də Bakı Olimpiya Stadionunda Kosovo yığması ilə görüşdə qolsuz heç-heçə edib.

"C" liqasının 2-ci qrupunda yer alan Finlandiya yığması Macarıstan seçməsini qəbul edib. Görüş 1:0 hesabı ilə finlandiyalıların qələbəsi ilə başa çatıb. Qrupun digər oyununda isə Yunanıstan yığması səfərdə Estoniya millisindən üstün olub (1:0).

Sentyabrın 9-da UEFA Millətlər Liqasının ikinci turunun növbəti oyunları keçirilib. Ikinci turun start oyununda Ukrayna millisi öz meydanında Slovakiya yığmasını qəbul edib. Görüş Andrey Şevçenkonun yetirmələrinin minimal hesabla qələbəsi ilə başa çatıb (1:0).

Günün maraqla gözlənilən oyunu "Stad de Frans" stadionunda baş tutub. "A" liqasının 1-ci turunda son dünya çempionu Fransa millisi Hollandiya yığmasını qəbul edib. Oyunda hesabı meydan sahibləri açıb. Belə ki, hollandiyalıların müdafiəçilərinin səhvini PSJ klubunun və Fransa yığmasının əsas oyunçusu Kilyan Mbape bağışlamayıb. Fasiləyə qədər hər iki komandanın cəhdlərinə baxmayaraq, hesab dəyişməyib.

Fasilədən sonra qonaqlar hesabı bərabərləşdirə biliblər. Qarşılaşmanın 67-ci dəqiqəsində Ryan Babel adını tabloya yazdırıb. Matçın 75-ci dəqiqəsində meydan sahibləri yenidən hesabda önə keçib. Benjamen Mendinin ötürməsini Olivye Jiru dəqiq zərbə ilə tamamlayıb. Qalan dəqiqələrdə hər iki komandanın cəhdlərinə baxmayaraq, hesab dəyişməyib. Beləliklə, görüş 2:1 hesabı ilə Fransa seçməsinin qələbəsi ilə başa çatıb.



### UEFA Millətlər Liqasında qeydə alınan nəticələr:

**Liqa A: qrup 3**

*7 sentyabr*

**İtaliya - Polşa - 1:1**

**Liqa B: qrup 2**

**Türkiyə - Rusiya - 1:2**

**Liqa C: qrup 1**

**Albaniya - İsrail - 1:0**

**Liqa C: qrup 4**

**Lixtenşteyn - Serbiya - 0:1**
**Rumıniya - Çernoqoriya - 0:0**

**Liqa D: qrup 3**

**Azərbaycan - Kosovo - 0:0**
**Farer adaları - Malta - 3:1**

**Liqa A: qrup 2**

*8 Sentyabr*

**İsveçrə - İslandiya - 6:0**

**Liqa A: qrup 4**

**İngiltərə - İspaniya - 1:2**

**Liqa B: qrup 3**

**İrlandiya - Bosniya Hersoqovina - 1:2**

**Liqa C: qrup 2**

**Finlandiya - Macarıstan 1:0**
**Estoniya - Yunanıstan - 0:1**

**Liqa D: qrup 2**

**Belarus - San Marino - 5:0**
**Lüksemburq - Moldova - 4:0**

**Liqa A: qrup 1**

*9 sentyabr*

**Fransa - Hollandiya - 2:1**

**Liqa B: qrup 1**

**Ukrayna - Slovakiya - 1:0**

**Liqa B: qrup 4**
**Uels - İrlandiya - 4:1**
**Danimarka - Uels - 2:0**

**Liqa C: qrup 3**

**Bolqarıstan - Norveç - 1:0**
**Kipr - Sloveniya - 2:1**

**Liqa D: qrup 1**

**Gürcüstan - Latviya - 1:0**

**Liqa D: qrup 4**

**Makedoniya - Ermənistan - 2:0**
**Lixtenşteyn - Cəbbəlütariq - 2:0**

## Millətlər Liqası: startda uğurlu və uğursuzlar

Ötən həftə futbol üzrə milli komandalar Millətlər Liqası çərçivəsində bir sıra maraqlı görüşlər keçirdi. Avropanın 55 yığma komandasının mübarizəsində yaddaqalan nəticələrlə yanaşı, maraqlı hadisələr qeydə alınıb.

### Qara dənizdə parıldayan stadion

Liqanın maraqla gözlənilən matçlarından biri Qara dəniz sahillərində - Trabzonda keçirildi. Ev sahibi olan Türkiyə komandası Rusiya millisi ilə üz-üzə gəldi. Mütəxəssislərin əvvəlcədən xəbər verdiyi proqnozlara görə tərəflər arasında oyun heç-heçə bitməli idi. Lakin dünya çempionatında bir sıra komandaları mübarizədən uzaqlaşdıran



"Rus drujinası" qələbəni əldən vermədi. "Şenol Günəş Akyazı" stadionunda minlərlə azarkeş önündə məğlubiyyətə uğrayan türklər çılğın fanatlarını məyus edib. Maraqlısı budur ki, 90 dəqiqə ərzində türkiyəli azarkeşlər stadionu konfettiyə qərq ediblər. Bu hadisə dünya mətbuatının diqqətindən yayınmayıb. Belə ki, stadionun təmizlik xidməti fasilədə meydançanı təmizləmək istəsələr də, buna nail ola bilməyiblər. Yayılan məlumatlara görə, təmizlik xidməti yalnız iki gün ərzində bu problemi aradan qaldıra biliblər.

### 3 il əvvəlki cəza başa çatdı

Ukrayna yığması liqa çərçivəsində növbəti görüşünü Slovakiya millisinə qarşı keçirib. Görüş böyük maraq kəsb etsə də, azarkeşlər bu qarşılaşmanı televiziya qarşısında seyr ediblər. Komandalar matça azarkeşsiz çıxıblar. Səbəb isə Ukrayna millisinin UEFA tərəfindən bir oyun cərimələnməsi idi. Qitənin ali futbol qurumu ukraynalıları 3 il əvvəl - 2015-ci il noyabr ayının 19-da İspaniya millsi ilə görüşdə cəzalandırmışdı. Həmin vaxt ukraynalılar tərəfindən stadionda "Kelt xaçı" əks olunmuş banner açılmışdı. Xatırladaq ki, bu hadisə Avro-2016 çərçivəsində paytaxt Kiyevdə baş vermişdi.

### Qrizman rəqibə çatmayanda belə edir

Millətlər Liqasında daha bir yadda qalan hadisə Parisdə baş verib. Son dünya çempionu olan Fransa millisi Hollandiyanı sınağa çəkib. "Stad de Frans"da keçirilən qarşılaşmada ev sahibləri qələbə qazanıblar. Bu matç daha çox Corcinyo Veynaldumla Antuan Qrizmanın mübarizəsi ilə diqqət çəkib. Belə ki, fransalı futbolçu rəqiblə mübarizədə onun şortikini tamamilə cıraraq, yararsız hala salıb. Bu hadisə sosial şəbəkələrdə böyük izləmə rekordu qırıb.

### "Saatlar ölkəsi"ndə gözlənilməz nəticə

Liqada turun ən böyük hesablı qələbəsi Sürixdə qeydə alınıb. Maraqlıdır ki, "saatlar ölkəsində" qarşılaşmada isveçrəlilər İslandiya millisini qonaq ediblər. Lakin



isveçrəlilər "qonaqpərvərliyi unudublar". Avropanın ən mübariz komandalarından biri olan İslandiya millisi ilk görüşdə rüsvayçı məğlubiyyətə uğrayıblar. "Qarabağ" klubunun əsas qapıçısı olan Hannes Tor Haldorsson öz qapısından 6 top buraxıb. Bu dünya mətbuatının manşetlərindən birinə çevrilib.

### "Vayar" ın ayağı düşərli oldu

Millətlər Liqasına böyük hesablı qələbə ilə başlayan Belarus millisi yarışlardan əvvəl özünün rəsmi talismanını təqdim edib. Belə ki, haqqında danışılan milli komanda



transformer "Vayar"ı dünyaya təqdim edib. "Vayar"dan bəhs edən video-çarx Youtube kanalında böyük izləyici kütləsi toplayıb.

### Salahdan sonra Şou...

İspaniya millisinin müdafiəçisi Serxio Ramos növbəti dəfə kobud oyunu ilə diq-



qət çəkib. Onun bu dəfəki qurbanı İngiltərə millisinin üzvü Luk Şou olub. Böyük Britaniyada keçirilən İngiltərə - İspaniya qarşılaşmasında rəqib ilə mübarizədə Ramos Şounu ciddi zədələyib. Zərərçəkən oyunu sona qədər davam etdirə bilməyib. Xatırladaq ki, Ramos bundan əvvəl çempionlar Liqasının finalında "Liverpul"un yarımmüdafiəçisi Məhəmməd Salahı ciddi zədələmişdi.

*Anar Əhmədov*

## Tennis əfsanəsi "Kral klubu"nun gələcək rəhbəri ola bilər

Madrid "Real"ının prezidenti Florentino Peres "kral klubu"ndakı davamçısını açıqlayıb. İspaniya mətbuatına istinadən yaydığı xəbərə görə, 71 yaşlı futbol funksioneri dünyaca tanınmış tennisçi Rafael Nadalın gələcəkdə bu vəzifəni tuta biləcəyini bildirib. Ancaq Nadal klub prezidentliyinə namizəd olmaq üçün 2031-ci ilə - 45 yaşına kimi gözləməlidir. Çünki namizədlər ən azı 20 il "Real"ın üzvü olmalıdırlar. Qeyd edək ki, Nadal 2011-ci ildən "Real" klubunun fəxri üzvüdür.

## "Barselona"dan daha bir rekord

Kataloniya klubunun rəsmi səhifəsində yer alan xəbərə görə, "Barselona" "Youtube" kanalında 5 milyon abunəçisi ilk olan futbol komandasıdır. Hazırda "Barselona"nın rəsmi "Youtube" kanalının 5 199 073 abunəçisi var. Son 1 ildə abunəçilərin sayı 1952 334 nəfər artıb. "Barselona" "Youtube" abunəçilərinin sayına görə "Real" (3 910 610), "Yuventus" (1 487 998), "Liverpul" (1 457 933) və "Mançester Siti"ni (1 429 243) qabaqlayır.

## Mövsümün ilk "El-Klassiko"su yaxınlaşır

İspaniya mətbuatında yer alan xəbərə görə, bu barədə La Liqanın prezidenti Xavyer Tebas yerli mətbuata məlumat verib.

La Liqanın 10-cu turunda "Barselona" doğma meydanda "Real"ı qəbul edəcək. Oktyabrın 28-də keçiriləcək matç Bakı vaxtı ilə saat 19:15-də başlayacaq.

Qeyd edək ki, La Liqada 3 turdan sonra "Barselona" və "Real" hərəyə 9 xalla müvafiq olaraq 1-ci və 2-ci pillədə qərarlaşıb.

## Legionerlər gənc futbolçuların inkişafına mane olur

İtaliyanın Daxili İşlər Naziri və baş nazirin müavini Matteo Salvini A seriyasında legioner limitinin tədbiq olunması ilə bağlı təklif irəli sürüb. o, bildirib ki, ölkədə gənc futbolçuların yetişməsi üçün əcnəbi oyunçulara məhdudiyyət qoyulmalıdır:

"Bu, itib-batan gənclərə özlərini göstərmək baxımından yaxşı imkan yarada bilər. Şadam ki, dünya futbolunun tanınmış nümayəndələrindən Roberto Mançini də mənimlə eyni fikirdədir".

Qeyd edək ki, hazırda İtaliya çempionatında hər klubun heyətində meydana Avropa Birliyinə üzv olmayan ölkələrdən 2 futbolçu çıxa bilər. İştirak ərizəsində isə klubun ən azı 8 yetirməsinin adı olmalıdır.

# DÜNYA idmanı



## Tayson rusiyalı döyüşçüyə inanır

Boks üzrə keçmiş mütləq dünya çempionu Mayk Tayson rusiyalı Həbib Nurmaqomedovun irlandiyalı Konor Makqreqora qarşı döyüşündə Nurmaqomedova üstünlük verdiyini bildirib. Bu döyüşdə yüngül çəkidə mütləq çempion titulu uğrunda mübarizə aparılacaq. Hazırda bu titulun sahibi Həbib Nurmaqomedovdur.

Tayson bu fikri Yekaterinburqda mətbuat konfransında söyləyib: “Həbib mənim xoşuma gəlir. Mən ona azarkeşlik edir və dəstəkləyirəm. Amma Makqreqor da hələ yaxşı formadadır. Bu mürəkkəb və gərgin döyüş olacaq”.

Nurmaqomedov - Makqreqor döyüşü oktyabrın 6-da Las-Veqas şəhərində keçiriləcək.





## Novak Cokoviçin 3-cü qələbəsi

Serbiyalı tennisçi Novak Cokoviç 3-cü dəfə Nyu-Yorkda keçirilən kişilər arasında “ABŞ Open” turnirinin qalibi olub. Bu, onun “Böyük dəbilqə” seriyasından 14-cü qələbəsi olub.

Həlledici görüşdə argentinalı Xuan Martin del Potro ilə üz-üzə gələn tanınmış idmançı rəqibini 6:3, 7:6 və 6:3 hesabı ilə məğlub edərək qalibiyyət sevincinin yaşayıb. Görüş üç saat iyirmi bir dəqiqə davam edib.

Xatırladaq ki, Novak Cokoviç “Böyük dəbilqə” seriyalı tennis turnirini qazanan ilk serbiyalı tennisçi kimi tarixə düşüb. Onun ilk dəfə “Böyük dəbilqə” seriyasında iştirakı 2005-ci ilə təsadüf edir.

## *Serena Uilyams cərimələnib*

Tanınmış tennisçi, “Böyük dəbilqə” turnirinin 23 qat çempionu Serena Uilyams ABŞ açıq turnirinin finalında Naomi Osakiyə uduzub. Beləliklə, Naomi Osaki “Böyük dəbilqə” seriyasından olan turnirin Yaponiyadan olan ilk qalibi kimi tarixə düşüb.

Analıq məzuniyyətindən sonra yenidən korta çıxan 36 yaşlı Serena Uilyams yarışın finalında qalmaqalla yadda qalıb. Buna görə idmançı Təşkilat Komitəsi tərəfindən 17 min dollar məbləğində cərimələnib. Dünyanın 26-cı raket ustası 2009-cu ildə isə hakimi hədələdiyi üçün 90 min dollar cərimə edilib.

Serena Ulyams bu turnirdə qalib gəlsəydi, özünün şəxsi 73-cü titulunu və “Böyük dəbilqə” seriyasından 24-cü qələbəsini qazanmış olacaqdı. O, bu yarışda “Böyük dəbilqə”nin 3-cü ən yaşlı finalçısı kimi tarixə düşüb.

Qeyd edək ki, ABŞ açıq turnirindən sonra XX əsrin ən yaxşı idmançısı, canlı əfsanə Pele yarışın qalib Naomi Osakini təbrik edib. “Oyunçular var ki, tarixin bir hissəsinə çevrilir, oyunçular var ki, tarix yazırlar.

Naomi Osakini “Böyük dəbilqə” seriyasından olan turnirin ilk yaponiyalı çempionu kimi təbrik edirəm”, - deyə bildirib.

## Britaniyalı pilot liderdir

“Mersedes”in britaniyalı pilotu Luis Hamilton Formula-1 yarışlarının 14-cü mərhələsi çərçivəsində İtaliya Qran-Prisi yürüşünün qalibi olub.




İkinci yeri Kimi Raykkonen (Ferrari) tutub. Finlandiyalı pilot karyerasında podiuma artıq 100-cü dəfə çıxıb. Üçüncü yerə Finlandiyanın daha bir təmsilçisi Valteri Bottas (“Mersedes”) layiq görülüb.

Şəxsi hesabında ikinci yeri tutan Sebastyan Fettel “Ferrari” birinci dövrədə Luis Hamiltonla toqquşandan sonra bir çox mövqelərini itirərək ikinci onluğun sonuna düşüb, lakin yekunda dördüncü yeri tutub.

Ümumi hesabda Hamilton (256) liderliyini möhkəmləndirib. İndi britaniyalı pilot Fetteldən (226) 30 xal irəlidədir.

Qeyd edək ki, “Mersedes”in pilotu Luis Hamilton hesab edir ki, Kimi Raykonen bu mövsümdə yarışı tərk etsə, onun Formula-1 yarışlarında mütləq yeri görünəcək.

O, bu barədə deyib: “Adətən pilotlardan biri yarışı tərk edəndə soruşurlar ki, həmin pilot üçün darıxmayacaqsan? Mən qəti surətdə deyə bilərəm ki, məhz Kimi Raykonen üçün darıxaram. Bu insan böyük təcrübə yolu keçib və peşəkardır. Onun təmkinliliyi məni valeh edir. Düşünürəm ki, Kimi Raykonen hələ qocalmayıb və yarışa davam edə bilər”.



## Mourinyo vergidən yayınmasını etiraf etdi

İngiltərənin “Mançester Yunayted” komandasının baş məşqçisi portuqaliyalı Joze Mourinyo İspaniyada vergi ödəməkdən boyun qaçırmasını etiraf edib və bir il şərti həbs cəzası ilə razılaşdığını bildirib. Mourinyo Madridin “Real” komandasının baş məşqçisi olan zaman Britaniyanın Virciniya adalarındakı bir şirkətin köməyi ilə imic hüquqlarına görə əldə etdiyi gəlirləri İspaniya Maliyyə Nazirliyindən gizlətdiyini etiraf edib. Mourinyo 2011-ci ildə1,6 milyon avro, 2012-ci ildə isə 1,7 milyon avro məbləğində vergini ödəməyib. Bu qanun pozuntularının hərəsinə görə 6 ay həbs cəzası almalıdır.

İspaniya qanunvericiliyinə əsasən, vergidən yayınmaya görə cəza müddəti iki ildən az olduqda cəza şərti həbs edilir.

Mourinyo 2016-cı il mayın 27-dən “Mançester Yunayted”-də baş məşqçi vəzifəsində çalışır. Klubla birlikdə o, İngiltərə Liqasının kubokunu, ölkənin Superkubokunu və Avropa Liqasının kubokunu qazanıb. Mourinyo baş məşqçi kimi, “Mançester Yunayted”dən və “Real”dan başqa, Portuqaliyanın “Benfika”, “Unian Leyriya” və “Portu”, İtaliyanın “İnter” və İngiltərənin “Çelsi” komandalarında işləyib.

## *Zəlzələyə görə oyun təxirə salındı*

Yaponiya və Çili yığmaları arasında sabah keçirilməsi nəzərdə tutulan yoxlama görüşü təxirə salınıb.

Matçın təxirə salınmasına Yaponiyanın Hokkaydo adasında baş verən 6,7 ballıq zəlzələ səbəb olub.

Təbii fəlakətin nəticəsində ölən və yaralananlar var. Hadisə nəticəsində adada elektrik təchizatı böyük miqyasda dayandırılıb. 3 milyondan çox insan işıqsız qalıb. Yaponiya Futbol Federasiyası bu amilləri nəzərə alaraq, Çili ilə matçın təxirə salınmasına qərar verib.

## *Monako” oyunçuların satışından ən çox gəlir əldə edib*

İsveçrənin futbol statistikası ilə məşğul olan “CIES Football Observatory” şirkəti klubların 2010-2018-ci illərdə transfer bazarında fəaliyyətinin yekunlarını açıqlayıb.

Fransanın “Monako” klubu oyunçuların satışından əldə olunan gəlirin miqdarına görə liderdir. Bu komanda 950 milyon avro qazanıb.



Ən çox gəlir əldə edən klubların beşliyinə İngiltərənin “Liverpul” (683 milyon), İtaliyanın “Roma” (680 milyon), İspaniyanın “Barselona” (628 milyon) və “Real” (625 milyon) komandaları daxildir.

## *Maradona yeni klubda*

Əfsanəvi futbolçu Dieqo Armando Maradonanın yeni iş yeri bəlli olub.

58 yaşlı mütəxəssis Meksikada çalışacaq. Argentinalı çalışdırıcı II Liqa təmsilçisi “Dorades de Sinola”nın “sükanı arxası”na keçib.




Qeyd edək ki, Maradona Birləşmiş Ərəb Əmirliklərinin “El-Fudjayre” klubundan ayrıldıqdan sonra bir müddət əvvəl Belarus “Dinamo”sunun baş məşqçisi təyin edilmişdi. 3 illik müqavilə imzalayan Maradona bu müddət ərzində klubun prezidenti vəzifəsini də icra edəcəkdi. Lakin əfsanə Belarusa getməyib.

## *Oyunçulara minnətdarlığını bildirdi*

ESPN-nin eksperti Doris Berk NBA-nın Şöhrət zalı tərəfindən yüksək jurnalist mükafatına layiq görülüb.

NBA-nın oyunçu və məşqçilərinə minnətdarlığını bildirən Doris Berk deyib: “NBA-nın məşqçilərinə və oyunçuları - Rik Karlayl, Lebron Ceyms, Stiv Kerr, Kris Pol və başqalarına təşəkkür edirəm. Mənə işimdə göstərdiyiniz dəstəyə görə hər birinizə minnətdaram. Məhz sizin sayənizdə ESPN tərəfindən mənə tapşırılan işdə özüməinamı tapdım”.

Doris Berklə bərabər fotoqraf Endi Bernstayn da mükafat alıb.

## *Basketbolçunun 77 milyon dolları mənimsənilib*

NBA-nın sabiq ulduzu Kevin Qarnett öz mühasibi Maykl Vertheymi və onun şirkətini məhkəməyə verib.

Basketbolçu mühasibini ona məxsus pulları mənimsəməkdə təqsirləndirir. İddiaya görə, mənimsənilən vəsaitin ümumi dəyəri 77 milyon ABŞ dollarıdır. Həmin pullar Kevin Qarnettin maliyyə məsləhətçisi Çarlz Benkslə birlikdə ələ keçirilib. Hazırda o, NBA-nın basketbolçusu Tim Dankanın pullarını mənimsədiyi üçün 4 il müddətinə azadlıqdan məhrum edilib.

Ələmdar Məmmədov, Əlikram Əliyev, Ağalar Cavadov, Şaiq İbadov, Razi Cəbiyev, Aslan Şirəliyev və Murad Fərzəliyev Şahbaz Həsənova, atası

**Laçın Həsənovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.

E-mail:
olimpiya_dunyasi@mail.ru
Ünvan:
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-90-54;
564-74-19